# Qarlı havada yıxılan 25 nəfər təcili yardıma müraciət edib

Xəsarət alanlardan 18-i qadın, 7-si kişidir



**Qarlı hava şəraiti ilə əlaqədar yıxılma səbəbi ilə Bakı Şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına 25 müraciət daxil olub.**

TƏBİB-dən verilən xəbərə görə, onlardan 18-i qadın, 7-si kişidir.

Müraciətlər əsasən diz oynağı, çanaq, bilək, topuq, çiyin çıxığı, əl nahiyələrinin travmaları ilə bağlı olub.

Xəsarət alanlardan biri uşaq, digərləri isə 20-62 yaş aralığında şəxslər olub.

Xəsarət alanların hər biri aidiyyəti üzrə tibb müəssisələrinə hospitalizasiya olunub.

# AMEA-nın Rəyasət Heyəti aparatına yeni təyinat olub



**Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti aparatının Vitse-Prezidentlərinin xidmətinin elmi katibi vəzifəsinə təyinat olub.**

Bu barədə AMEA-nın Prezidenti, akademik İsa Həbibbəyli sərəncam imzalayıb.

*Sərəncama əsasən, bu vəzifəyə AMEA Rəyasət Heyəti aparatının Təhsil şöbəsinin Doktorantura sektorunun müdiri Tubuxanım Elman qızı Qasımzadə təyin olunub.*



# Məktəblərin bağlanmasına dair qərar verilməyib

Hava şəraiti ilə əlaqədar şagirdlərin dərsə davamiyyəti azalıb

**Hava şəraitinin kəskin dəyişməsi ilə əlaqədar olaraq ölkə üzrə ümumi təhsil müəssisələrində şagirdlərin dərsə davamiyyəti nisbətən azalıb.**

Elm və Təhsil Nazirliyindən verilən xəbərə görə, bu, dağlıq və dağətəyi rayonlarında dərsə davamiyyətə daha çox təsir edib.

Qeyd edilib ki, şaxtalı hava şəraiti ilə bağlı bəzi ümumi təhsil müəssisələrində istilik təminatı ilə bağlı problemlər qeydə alınıb. Həmin məktəblərdə istiliyin bərpası istiqamətində işlər aparılır.

*Qeyd edək ki, qeyri-sabit hava şəraiti ilə bağlı məktəblərin bağlanmasına dair hər hansı bir rəsmi qərar verilməyib.*


№ 3 (5764), 2023-cü il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 10 yanvar 2023-cü il (çərşənbə axşamı)





# Qarşıya qoyulan vəzifələrdən biri budur ki, bölgələrdə idman canlansın

Prezident İlham Əliyev: "Azad edilmiş ərazilərdə beynəlxalq idman yarışlarının keçirilməsinin tarixi əhəmiyyəti var"

**"Hər il olduğu kimi, keçən il də Azərbaycan idmanı üçün uğurlu il olub". Bunu Prezident, Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyev yanvarın 9-da 2022-ci ilin idman yekunlarına həsr olunan mərasimdə bildirib. Dövlət başçısı qeyd edib ki, bütövlükdə ölkə miqyasında görülmüş işlərə yüksək qiymət vermək olar:**

"Çünki keçən ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr icra edildi, Azərbaycanın dinamik inkişafı təmin olundu. İdman da həyatımızın tərkib hissəsi olduğu üçün əlbəttə ki, ümumi tendensiya çərçivəsində inkişaf etmişdir.

(səh.2)

# Türkiyə NK seçkilərin daha tez tarixdə keçirilməsini müzakirə edəcək



**Ankarada Türkiyə Nazirlər Kabinetinin iclası keçirilir.**

APA-nın İstanbul müxbiri xəbər verir ki, bu barədə Türkiyənin Prezident Administrasiyası məlumat yayıb.

*Qeyd olunub ki, iclasda prezident seçkilərinin daha tez tarixdə keçirilməsi məsələsi müzakirə olunacaq.*

*Bundan əlavə, daxili və xarici siyasətə dair mühüm məsələlər ətrafında da fikir mübadiləsi aparılaraq qərarlar veriləcək.*

# Azərbaycanın yardım etdiyi ermənini ölümlə hədələdilər

Bütün hallarda Laçın yolunda yaşanan hadisə Qarabağdakı erməni əhali üçün siqnaldır



**Bir neçə gün bundan əvvəl Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazidən mülki erməni Azərbaycan Ordusunun postlarının birinə yaxınlaşaraq kömək istəyib. Erməni ac olduğunu, üşüdüyünü və siqaret istədiyini bildirib.**

Qarabağın erməni sakininə yemək, siqaret verilib, ona qayğı ilə yanaşılıb. Daha sonra mülki erməni sakin Şuşadan keçən Xankəndi-Laçın yolunda Rusiya sülhməramlılarına təhvil verilib. Bu fakt bir daha Azərbaycanın humanist mövqeyini, aksiyanın dinc xarakter daşıdığını, yolun humanitar məqsədlər üçün açıq olduğunu nümayiş etdirib. Digər tərəfdən erməni sakininin kömək üçün müraciəti Qarabağda Ruben Vardanyanın girovuna çevrilmiş 25-30 min nəfərlik erməni əhalisinin hansı vəziyyətdə saxlandığını, onların xoşbəxt həyatının, təhlükəsizliyinin ancaq və ancaq Azərbaycan dövlətindən asılı olmasının nümunəsidir.

(səh.3)

# Bir az da dözün

Növbəti iki həftə ərzində viruslar səngiyəcək



**"Virus infeksiyalarının bu cür kütləvi yayılması bu ilə xarakterik deyil.**

Tarix boyu payız və qış aylarında görülən hadisədir. Fəsil dəyişkənliyi və havaların soyuması səbəbindən immun sisteminin zəifləməsi ilə əlaqədar olaraq infeksiyaların fəallığında artım müşahidə edilir. İlin bu mövsümündə həmişə bu halla üzləşmək mümkündür". Bu sözləri "Şərq"ə açıqlamasında həkim-infeksionist Natiq Əliyev deyib. Son dövrlər ölkədə yayılan kəskin respirator virus infeksiyalarının yuxarı və aşağı tənəffüs yolu xəstəliklərinin fonunda aktivləşdiyini vurğulayan həkim deyib ki, virusun növündən asılı olaraq əlamətlərdə fərqlilik də ola bilər...

(səh.4)




# Azərbaycanda ilk dəfə

Vəhşi heyvanlar helikopterlə peyvənd olunacaq

**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) aidiyyəti orqanlarla birgə ətyeyən vəhşi heyvanlar arasında quduzluq xəstəliyinə qarşı peyvəndləmə işləri aparacaq.**

Bu barədə "Şərq"ə AQTA-dan məlumat verilib.

Qeyd olunub ki, peyvəndləmə bu ilin yanvar ayında ilk dəfə helikopterlə Şamaxı, Ağsu, İsmayıllı, Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayonları ərazisində kəndətrafı meşəlik sahələrdə aldadıcı yem vasitəsilə aparılacaq. Aldadıcı yemi paylayacaq marşrut müəyyənləşdiriləcək müvafiq xəritə tərtib edilib.

(səh.7)

# Bakıda üçəm doğulub



**Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunda üçəm doğulub.**

İnstitutdan APA-ya verilən xəbərə görə, spontan baş vermiş üçəm hamiləlik ilə müraciət edən qadına hamiləliyin 34-cü həftəsində qeysəriyyə kəsiyi icra olunub.

Əməliyyatdan öncə respirator distres sindromunun profilaktikası məqsədilə görülən tədbirlər öz nəticəsini verib, vaxtından əvvəl dünyaya gəlmələrinə baxmayaraq, üçəmlərə heç bir reanimasion tədbirin icra olunmasına ehtiyac olmayıb.

*İki qız, bir oğlan olan körpələr sağlam şəkildə ailələri ilə birlikdə evə yola salınıb.*

# 3 nəfər vəfat edib

16 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 16 yeni yoluxma faktı qeydə alınıb, 18 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 3 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 826 924 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 816 422 nəfər müalicə olunaraq sağalıb, 10 023 nəfər vəfat edib, aktiv xəstə sayı 479 nəfərdir.

*Ölkədə son sutka ərzində 1 061, hazırkı dövrədək isə 7 445 292 test aparılıb.*



# "Mən İmişlinin deputatı olaraq Leyla xanımı dəstəkləyirəm"

Razi Nurullayev: "O, bizim məktəbə təhsil üçün göndərdiyimiz fidan balaların gələcəyi üçün həyəcan təbili çalıb"

(səh.3)



# Gömrükdəki hadisələr hələ başlanğıcdır

Rusiyanın hərbi bazası qarşısında aksiyaya birbaşa Ermənistanın baş naziri şərait yaradıb

(səh.5)




# Qarşıya qoyulan vəzifələrdən biri budur ki, bölgələrdə idman canlansın

## Prezident İlham Əliyev: “Azad edilmiş ərazilərdə beynəlxalq idman yarışlarının keçirilməsinin tarixi əhəmiyyəti var”

**”Hər il olduğu kimi, keçən il də Azərbaycan idmanı üçün uğurlu il olub”. Bunu Prezident, Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyev yanvarın 9-da 2022-ci ilin idman yekunlarına həsr olunan mərasimdə bildirib. Dövlət başçısı qeyd edib ki, bütövlükdə ölkə miqyasında görülmüş işlərə yüksək qiymət vermək olar:**

”Çünki keçən ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr icra edildi, Azərbaycanın dinamik inkişafı təmin olundu. İdman da həyatımızın tərkib hissəsi olduğu üçün əlbəttə ki, ümumi tendensiya çərçivəsində inkişaf etmişdir. Bunu həm idmançılarımızın qələbələri göstərir, eyni zamanda ölkəmizdə keçirilmiş müxtəlif beynəlxalq yarışlar Azərbaycanı bir daha idman ölkəsi kimi təsdiqləyir. Bütövlükdə son illərdə aparılan siyasət bu gün öz gözəl nəticələrini verməkdədir”.

**“İdmançılar beynəlxalq yarışlarda 800-dən çox medal qazanıb, onlardan 300-ə yaxını qızıl medaldır”**

*Prezident qeyd edib ki, idmançılar beynəlxalq yarışlarda 800-dən çox medal qazanıb, onlardan 300-ə yaxını qızıl medaldır:* ”Doğrudan da böyük nailiyyətdir. Çünki dünyada idman sahəsində rəqabət artır, yeni idman ölkələri meydana çıxır. Ona görə hər il bu yüksək nəticələri göstərmək, öz gücünü təsdiqləmək asan məsələ deyil”.

*Dövlət başçısı deyib ki, hakim ədalətsizliyi bizi bir neçə medaldan məhrum edib:* ”Beynəlxalq yarışlar arasında xüsusilə V İslam Həmrəyliyi Oyunlarını qeyd etmək istərdim. Bildiyiniz kimi, 5 il bundan əvvəl Bakıda keçirilmiş İslam Həmrəyliyi Oyunlarında Azərbaycan komanda hesabında birinci olmuşdur. Bu, tarixi qələbə idi və bu dəfə Türkiyənin Konya şəhərində 56 ölkə arasında idmançılarımız 99 medalla 4-cü yerə layiq görülmüşlər. Bu, bir daha Azərbaycanın idman sahəsindəki uğurlarını təsdiqləyir. Çünki İslam Həmrəyliyi Oyunlarında rəqabət çox böyük idi, demək olar ki, bütün komandalar əsas heyətlə təmsil olunurdu. Gərgin mübarizə zamanı 4-cü yeri tutmaq əlbəttə ki, böyük qələbədir, böyük nailiyyətimizdir. Bu Oyunları biz izləmişik və əfsuslar olsun yenə də qeyd etməli oluruq ki, hakim ədalətsizliyi bizi bir neçə medaldan məhrum etmişdir. Buna baxmayaraq, bu böyük nailiyyət, - mən bunu qələbə hesab edirəm, - bir daha Azərbaycan idmanının gücünü təsdiqləyir və göstərir ki, Azərbaycanda idmanın inkişafı ardıcıl xarakter daşıyır. Çünki 5 il əvvəl Bakıda iştirak etmiş idmançılarımızın bir çoxu Konyada İslam Həmrəyliyi Oyunlarında iştirak etmirdi. Beləliklə, nəsillər dəyişir, ancaq uğurlarımız sabit qalır və bu, bir önəmli məsələyə diqqətimizi çəkir - yəni, o mənada ki, burada da biz inkişaf və uğur görürük, nəsillər dəyişdikcə görkəmli idmançılarımızın təcrübəsi elə bil ki, gənc idmançılara təhvil verilir. Yəni Azərbaycanda yetişən gənc idmançılar bizim idman şöhrətimizi bundan sonra da yüksəklərdə saxlayacaqlar və bu, daimi proses olmalıdır”.

**“Gənclər və idman naziri qarşısında qoyulan vəzifələrdən biri də məhz bu idi ki, bölgələrdə idman canlansın”**

*Ölkə rəhbəri bildirib ki, gənclər və idman naziri qarşısında qoyulan vəzifələrdən biri də məhz bu idi ki, bölgələrdə idman canlansın:* ”Gənc idmançıların hazırlanması əlbəttə ki, mütəşəkkil qaydada təmin edilməlidir. Son vaxtlar bu sahədə daha məqsədyönlü fəaliyyət də göz önündədir, xüsusilə seleksiya işləri. Bölgələrdə keçirilmiş çoxsaylı tədbirlər gəncləri, uşaqları, yeniyetmələri idman bölmələrinə cəlb etmək üçün daha böyük imkanlar yaradacaq”. Dövlət başçısı qeyd edib ki, son bir neçə il ərzində bütün ölkə üzrə müxtəlif yarışlar keçirilib: ”Mən bunu çox yüksək qiymətləndirirəm. Gənclər və idman naziri qarşısında qoyulan vəzifələrdən biri də məhz bu idi ki, bölgələrdə idman canlansın və bir çox yarışlar keçirilsin. Bu siyasət idman uğurlarımızı şərtləndirəcək. Eyni zamanda gənclər, yeniyetmələr, uşaqlar gənc, uşaqlıq yaşlarından idmana cəlb ediləcək və bunun onların tərbiyəsi üçün çox böyük əhəmiyyəti var. Çünki idman həm fiziki gücdür, həm də özündə fiziki güc hiss edən hər bir insan adətən mənəvi cəhətdən də sağlam olur”. Prezident vurğulayıb ki, bizim görkəmli idmançılarımızın uğurları və nümunəsi bütün gənc idmançılar üçün örnək olmalıdır.

**“Biz Bakıda yeni yarışları qəbul edəcəyik”**

*Prezident vurğulayıb ki, idman hər bir ölkənin ictimai həyatının önəmli bir hissəsidir:* ”Bəzi ölkələrdə bu, prioritet sayılır, Azərbaycandakı kimi. Bəzi ölkələrdə sayılmır. Amma mən hesab edirəm ki, biz düzgün yoldayıq. Çünki həm ölkəmizin şöhrəti, eyni zamanda sağlam həyat tərzinin təbliğ edilməsi - bu amillər hər bir ölkə üçün önəmli olmalıdır. Sevindirici hal ondan ibarətdir ki, bu gün idmanla məşğul olmaq üçün bütün imkanlar var. Bölgələrdə 50-yə yaxın Olimpiya İdman Kompleksi yaradılmışdır, bu proses davam etdirilir. Eyni zamanda biz Bakı şəhərində ən mötəbər idman yarışlarını qəbul etmişik və yeni yarışları qəbul edəcəyik. Ölkəmizdə həm dünya, həm Avropa çempionatları keçiriləcək, Olimpiya Oyunlarının təsnifat turnirləri də əvvəllər keçirilmişdir, gələcəkdə də bu, istisna deyil. Yay Olimpiya Oyunlarına hazırlığın son mərhələsindəyik. 2023-cü il bir çox parametrlər üzrə həlledici il olacaqdır. Ona görə bizim bütün idman ictimaiyyətimiz, nazirlik, Milli Olimpiya Komitəsi, federasiyalar, klublar, idman cəmiyyətləri, əlbəttə, əsas istiqaməti bunda görməlidirlər ki, Azərbaycan Yay Olimpiya Oyunlarında da öz gücünü təsdiqləsin”.

*Prezident qeyd edib ki, azad edilmiş ərazilərdə beynəlxalq idman yarışlarının keçirilməsinin tarixi əhəmiyyəti var:* ”Azad edilmiş ərazilər indi canlanır, həyat qayıdır, insanlar qayıdır. Bildiyiniz kimi, tarixi Zəfərimizdən dərhal sonra azad edilmiş torpaqlarda genişmiqyaslı quruculuq-bərpa işlərinə başlamışıq və o bölgələrdə beynəlxalq idman yarışlarının keçirilməsinin çox böyük rəmzi mənası var. Şuşada beynəlxalq şahmat yarışı, Suqovuşanda, Suqovuşan gölündə beynəlxalq avarçəkmə yarışı keçirilmişdir. Zəngilanın Ağalı kəndinin ətrafında triatlon üzrə yarış keçirilmişdir. Mən bunu çox yüksək qiymətləndirirəm və bu il də bu işlər davam etdirilməlidir”.

**“Azad edilmiş bütün digər şəhərlərdə idman obyektlərinin yaradılması planlarımızdadır”**

*Dövlət başçısı deyib ki, azad edilmiş bütün digər şəhərlərdə idman obyektlərinin yaradılması planlarımızdadır:* ”Əlbəttə, biz, ilk növbədə, keçmiş köçkünləri öz dədə-baba torpaqlarına qaytarmalıyıq və bu istiqamətdə işlər gedir. İlk növbədə, məktəblər, xəstəxanalar, infrastruktur yaradılmalıdır. Ancaq idman obyektləri də əlbəttə ki, yaddan çıxmır və çıxmayacaq”.

**“İmarət” stadionunun yeni layihəsi işlənilir, Ağdamda böyük Olimpiya İdman Kompleksi yaradılacaq”**

*Prezident bildirib ki, ”İmarət” stadionunun yeni layihəsi işlənilir, Ağdamda böyük Olimpiya İdman Kompleksi yaradılacaq:* ”Onu da bildirməliyəm ki, azad edilmiş şəhərlərin hər birində idman qurğularının yaradılması nəzərdə tutulur. Bütün şəhərlərin Baş planları təsdiq edilib. Bərpa-quruculuq işləri Baş planlar əsasında aparılacaq və idman obyektlərinin yaradılması nəzərdə tutulur. Bildirməliyəm ki, Ağdamın məşhur ”İmarət” stadionunun yeni layihəsi işlənilir. Stadion yenidən qurulacaq, eyni zamanda onun yanında böyük Olimpiya İdman Kompleksi yaradılacaq. Bununla bərabər olaraq, keçən il Ağdamın Eyvazxanbəyli kəndində Qarabağ Atçılıq Kompleksinin təməli qoyuldu. Biz Qarabağ Atçılıq Kompleksini işğal dövründə Ağcabədi rayonunda yaratmışdıq, yenə də Qarabağ torpağında yaratmışdıq. Ancaq qərar qəbul olundu ki, bunun əzəli yerində - Eyvazxanbəyli kəndində çox gözəl, müasir atçılıq kompleksi yaradılsın. Artıq işlərə start verilmişdir”.

**“Azərbaycanda sabitlik, əmin-amanlıq, təhlükəsizlik hökm sürür, genişmiqyaslı quruculuq işləri aparılır”**

*Prezident deyib ki, Azərbaycanda sabitlik, əmin-amanlıq, təhlükəsizlik hökm sürür, genişmiqyaslı quruculuq işləri aparılır:* ”Bütün bunları qeyd edərək bir daha demək istəyirəm ki, Azərbaycan özünü dünyada güclü idman dövləti kimi təsdiqləyib və bütövlükdə ölkəmizin dünya arenasında mövqeyi ildən-ilə möhkəmlənir. Biz öz siyasətimizi ardıcıl şəkildə aparırıq. Azərbaycanda sabitlik, əmin-amanlıq, təhlükəsizlik hökm sürür, genişmiqyaslı quruculuq işləri aparılır. Tarixi Zəfərimiz hər bir azərbaycanlı üçün, hər bir vətəndaş üçün, bütün dünya azərbaycanlıları üçün qürur mənbəyidir. Biz gələcək nəsli də vətənpərvərlik ruhunda tərbiyə edəcəyik, necə ki, bunu həmişə etmişik və elə gözəl gənc nəsil yetişdirmişik ki, həm idman arenalarında ölkəmizin bayrağını qaldırır, həm də döyüş meydanında”.

**“Xalqımız müzəffər xalq kimi yaşayır və bu qürurverici amil bizimlə bundan sonra əbədi olacaq”**

*Azərbaycan Prezidenti bəyan edib ki, xalqımız müzəffər xalq kimi yaşayır və bu qürurverici amil bizimlə bundan sonra əbədi olacaq:* ”İkinci Qarabağ müharibəsində iştirak edənlərin mütləq əksəriyyəti gənclər idi - bizim siyasətimiz əsasında yetişən, həm cəmiyyətdə, həm də ailələrdə gözəl tərbiyə alan gənclər idi. Bu amil əlbəttə ki, bütün sahələrdə özünü göstərir. Yəni artıq iki ildən çoxdur ki, xalqımız müzəffər xalq kimi yaşayır və bu qürurverici amil bizimlə bundan sonra əbədi olacaq. Sadəcə olaraq, bizim hər birimiz də öz sahəmizdə, öz fəaliyyətimizdə bu müqəddəs Zəfərə layiq olmalıyıq. Əminəm ki, indi idmançılarımız beynəlxalq yarışlarda iştirak edərkən onlar tamamilə başqa bir həvəslə, hətta başqa bir hərəkətlə çıxış edirlər və bizim müzəffər xalq olmağımızın həqiqətini bir daha təsdiqləyirlər. Mən əldə edilmiş bütün uğurlar münasibətilə idmançıları, onların məşqçilərini, idman ictimaiyyətini bir daha təbrik etmək istəyirəm. Adətən idman yekunları ilə bağlı görüşlərimiz ilin sonunda baş verirdi, lakin keçən ilin sonunda bir çox tədbirlər olduğu üçün belə imkan olmadı. Ancaq hesab etdim ki, biz bu ənənəni bərpa etməliyik. COVID dövründə belə imkan olmamışdır. Ancaq ənənələr Azərbaycan xalqının dünyagörüşünün ayrılmaz bir tərkib hissəsidir. Ona görə biz bu ənənəni bərpa etmişik. Yeni uğurlar, yeni qələbələr, Azərbaycan dövləti hər zaman sizin yanınızda olacaq. Sizin uğurlarınıza bütün xalqımız sevinir, bütün uğurlar yüksək səviyyədə qiymətləndirilir və qiymətləndiriləcəkdir”.

**“Bölgələrdə də açıq havada idman üçün şərait yaratmalıyıq”**

*Dövlət başçısı bildirib ki, bölgələrdə də açıq havada idman üçün şərait yaratmalıyıq:* ”İdmanın kütləviliyinə gəldikdə isə hesab edirəm ki, bölgələrdə təbliğat daha geniş vüsət almalıdır. Biz son vaxtlar Bakı şəhərinin parklarının bir neçəsində açıq havada idmanla məşğul olmaq üçün şərait yaratmışıq, trenajorlar quraşdırılıb. Hesab edirəm ki, biz bu təcrübəni bütün bölgələrə aparmalıyıq, orada tətbiq edilməlidir. Nazirlik, yerli icra orqanları bu məsələ ilə ciddi məşğul olsunlar. Çünki hər bir insanın bəlkə həm vaxtı, həm də maliyyə imkanları olmur ki, idman zallarına getsin. Ona görə açıq havada, - nəzərə alsaq ki, Azərbaycanın əksər yerlərində hava şəraiti il boyunca müsbətdir, - bunun çox böyük təsiri olacaq, həm insanların sağlamlığı üçün, həm də bütövlükdə idmanın inkişafı üçün. Ona görə hesab edirəm ki, buna böyük ehtiyac vardır”.

**İsmayıl**

# Prezident bir qrup idmançıya və idman mütəxəssisinə mənzil verib

**Azərbaycanda idmanın inkişafında xidmətləri olan idmançıların və idman mütəxəssislərinin mükafatlandırılması mərasimi olub.**

Prezident İlham Əliyev 2022-ci ildə yüksək nailiyyətlər qazanmış bir qrup idmançıya və idman mütəxəssisinə - Dadaşbəyli Dadaş, Ruslan Lunyov, Əli İbrahimov, Tahir Baxşıyev, Tayfur Əliyev, İlham Məmmədov, Təbriz Həsənov, Ağahüseyn Mustafayev, Sənan Süleymanov, Taleh Məmmədov, Ramazan Muradov, Yaylagül Ramazanova, İrina Zaretska, Fəxrəddin Quliyev, Südeif Quliyev, Elvin Astanov, Ramil Mahmudov, Billurə Eminova, Rəhim Qasımov, Cavad Ağayev, Asif Həsənov və Şəfəq Kərimovaya yeni mənzillərin orderlərini təqdim edib.




*Qeyd edək ki, dünən 2022-ci ilin idman yekunlarına həsr olunan mərasim keçirilib. Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.*

# Hulusi Akarın təşəkkür etməsi qürurvericidir

## Sarıqamış döyüşlərində Azərbaycan türkləri Osmanlı türkləri ilə çiyin-çiyinə döyüşüblər



**Türkiyənin milli müdafiə naziri Hulusi Akar Sarıqamış şəhidlərini Anma Günü ilə bağlı bəyanatında Azərbaycana da təşəkkürünü bildirib. Nazir vurğulayıb ki, Türkiyə ”dost, qardaş və müttəfiqlərinin haqlı davasına dəstəyini davam etdirir:**

”Sarıqamış şəhidlərinin xatirəsini andığımız bu mənalı gündə Nargin adasında məskunlaşmağa məcbur olan mehmetçiklərimizə köməkliyi ilə ”bir millət, iki dövlət” ifadəsinin bariz nümunəsini nümayiş etdirən qardaş Azərbaycan xalqını ehtiram və şükranla yad edirik”.

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov ”Şərq”ə deyib ki, Türkiyənin milli müdafiə naziri Hulusi Akarın Sarıqamış şəhidlərini Anma Günü ilə bağlı bəyanatında Azərbaycan xalqına təşəkkür etməsi qürurvericidir. Partiya rəhbəri qeyd edib ki, iki qardaş ölkənin insanlarının bir-birilərinin dərdinə də, sevincinə də şərik olmasından təbii heç nə yoxdur:** ”Son iki əsrdə tale və zaman Azərbaycan və Türkiyə türklərinin qardaşlığını, birliyini dəfələrlə sınağa çəkib. Ölkələrimiz və xalqlarımız ən ağır sınaqlardan, keşməkeşlərdən üzü ağ keçib gəliblər. Bir əsr öncə Sarıqamış döyüşlərində Azərbaycan türkləri Osmanlı türkləri ilə çiyin-çiyinə döyüşüblər. Həmçinin xalqımız da öz növbəsində mənfur çar Rusiyası tərəfindən əsir götürülən və Nargin adasına sürgün edilən mehmetciklərə sahib çıxıb. Onları həm qida və isti geyimlərlə təmin edib. Həm də bir çox türk əsgərlərinin adadan gizli yolla qaçırılıb Türkiyəyə yola salınmalarına kömək edib.

Ona görə də türk xalqı və Türkiyə dövlətinin rəsmiləri Azərbaycan türklərinin bu köməkliyini, bu fədakarlığını bu gün də unutmur. Bunun özü də ”bir millət, iki dövlət” ifadəsinin bariz nümunəsidir. Biz bundan sonra da hər yerdə və hər zaman bir-birimizə dayaq olmağa davam edəcəyik”.

**İsmayıl Qocayev**

# Bakı yaranmış şəraitdən yararlanacaq

## “2023-cü il İran agenturasının tamamilə məhv edilməsi üçün ən uyğun zamandır”



**”İranın Azərbaycandakı agenturası bir müddətdir öz səssizliyini qoruyur. Hər vəchlə molla rejiminin təlimatlarını yerinə yetirən bu şəxslərin səsi çıxmır”.**

**Bu sözləri siyasi şərhçi Turan Rzayev deyib. Analitik bildirib ki, agenturanın intellektual rəy liderləri bir yana, heç qaragüruh kimi tanınanlar da ortalıqda görünmür:** ”Diqqət çəkən əsas məqam isə SEPAH-ın Azərbaycana qarşı özündə təhdid və provokasiya elementlərini əks etdirən növbəti videoçarxı yayması, lakin Tehrandan bu istiqamətdə agenturanın üzvlərinə təlimat gəlməməsidir. Geridə qoyduğumuz 2022-ci ilin ən yaddaqalan hadisələrindən biri də İran xüsusi xidmət orqanları nümayəndələrinin kəşfiyyat-pozuculuq fəaliyyətinin qarşısının alınması, yaradılmış casus şəbəkəsinin ifşa olunması istiqamətində aparılan kompleks əməliyyat-istintaq tədbirləri oldu. Rəsmi Bakının apardığı əməliyyatlar İranın ölkəmizdəki agentura şəbəkəsinə ciddi zərbə vurdu. Lakin bu o demək deyil ki, agentura büsbütün çökdürülüb, kökü kəsilib. Hazırda ölkədə İran agenturasına xidmət edən, molla rejiminin tapşırıqlarını dinləyən kifayət qədər şəxs var. Rəsmi Tehran Bakıya təzyiq imkanlarından tamamilə məhrum olmamaq üçün İran agenturasının intellektual kəsimini, habelə onlara bağlı qaragüruha bir müddət gizlənmək təlimatı verib. Başqa cür desək, ”kölgədə gizlən” siyasəti elan edilib.

> “İrana bağlı olan və molla rejimindən maliyyə alan media resurslarının fəaliyyəti dayandırılmalıdır. Təhsil, mədəniyyət, siyasət, hətta ordu daxilindəki İran agenturasına bağlı qüvvələr aşkarlanıb zərərsizləşdirilməlidir”

Bu yolla rəsmi Bakının diqqətinin yayınması, proseslər sakitləşənədək yenidən təşkilatlanmaq, güc toplamaq hədəflənir”.

**T.Rzayevə görə, İran agenturası ölkədə tamamilə çökdürülüb, məhv edilməsə də, 30 il ərzində heç olmadığı qədər zəifləyib:** ”Rəsmi Bakı uzun illərdir anonsu verilən və 2022-ci ildə başlanan İran agenturasının çökdürülməsi əməliyyatlarına bu il də davam etməlidir. DTX əməliyyat-istintaq tədbirləri həyata keçirməli, agentura ilə yaxından-uzaqdan əlaqəsi olan şəxslər aşkar edilməlidir. İrana bağlı olan və molla rejimindən maliyyə alan media resurslarının fəaliyyəti dayandırılmalıdır. Təhsil, mədəniyyət, siyasət, hətta ordu daxilindəki İran agenturasına bağlı qüvvələr aşkarlanıb zərərsizləşdirilməlidir. Nəticə etibarilə 2023-cü il İran agenturasının tamamilə məhv edilməsi üçün ən uyğun zamandır. Çünki İranda etiraz aksiyaları hələ də davam edir və rəsmi Tehranın başı daxili məsələlərə qarışıb. Mövcud problemlər aradan qalxanadək Tehran öz agenturasına ”dur!” əmri verib. Rəsmi Bakı bundan ən yaxşı şəkildə istifadə etməli və agenturaya yekun, sarsıdıcı zərbəni endirməlidir”.

**İsmayıl**



# Azərbaycanın yardım etdiyi ermənini ölümlə hədələdilər

## Bütün hallarda Laçın yolunda yaşanan hadisə Qarabağdakı erməni əhali üçün siqnaldır

**Bir neçə gün bundan əvvəl Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazidən mülki erməni Azərbaycan Ordusunun postlarının birinə yaxınlaşaraq kömək istəyib. Erməni ac olduğunu, üşüdüyünü və siqaret istədiyini bildirib.**

Qarabağın erməni sakininə yemək, siqaret verilib, ona qayğı ilə yanaşılıb. Daha sonra mülki erməni sakin Şuşadan keçən Xankəndi-Laçın yolunda Rusiya sülhməramlılarına təhvil verilib. Bu fakt bir daha Azərbaycanın humanist mövqeyini, aksiyanın dinc xarakter daşıdığını, yolun humanitar məqsədlər üçün açıq olduğunu nümayiş etdirib. Digər tərəfdən erməni sakininin kömək üçün müraciəti Qarabağda Ruben Vardanyanın girovuna çevrilmiş 25-30 min nəfərlik erməni əhalisinin hansı vəziyyətdə saxlandığını, onların xoşbəxt həyatının, təhlükəsizliyinin ancaq və ancaq Azərbaycan dövlətindən asılı olmasının nümunəsidir. Bu xəbərin tirajlanması ilə Qarabağdakı erməni separatçı-terrorçu dəstəsi və Ermənistan mediası panikaya düşüb. Xəbərin dərhal ardından Qarabağda, rus sülhməramlıların himayəsi altında fəaliyyət göstərməyə çalışan separatçıların "təhlükəsizlik xidməti" erməni sakinin aksiya iştirakçıları ilə "görüşdüyü" barədə məlumatı dərhal təkzib edib. Belə aydın olur ki, "təhlükəsizlik xidməti" məlumatı təkzib edərkən, nəyin baş verdiyini ümumiyyətlə bilməyib. Erməni sakinin niyə Azərbaycan əsgərlərinə sığınmasından da xəbərsiz olub. Əks halda, heç olmasa, erməni sakinin adı açıqlanardı. Bir neçə dəqiqə öncə isə "təhlükəsizlik xidməti" daha bir açıqlama yaydı. Bildirdi ki, həmin şəxs Toros Kazaryan adlı Xocavənd rayonunun Çartar kənd sakinidir. Heyvandarlıqla məşğul olan həmin şəxs guya 1 yanvarda itkin düşüb. Bundan sonra isə erməni separatçıların nağılları başlayıb: "Həmin şəxs azıb və Azərbaycan əsgərləri onu tapıb". Guya separatçılar buna görə sülhməramlılara da müraciət ediblərmiş. Əlbəttə, bu cür xəbərlərin hamısı uydurmadır. Reallıq odur ki, ermənilər azərbaycanlı hərbçilərdən kömək istədiyi üçün Toros Kazaryanı öldürməyə çağırışlar ediblər. Sosial şəbəkələrdə erməni istifadəçilər tərəfindən Toros Kazaryanın ünvanına müxtəlif təhqirlər və təhdidlər səsləndirilib.

> "İstisna deyil ki, belə ermənilərin sayı arta bilər. Həmin erməninin sonrakı taleyi ilə də maraqlanmaq lazımdır"

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə deyib ki, Xankəndidə yaşayan mülki erməninin Azərbaycan postuna yaxınlaşaraq yardım istəməsi və ehtiyaclarının ödənərək, yola salınması görüntüləri bir neçə kontekstdə əhəmiyyətli faktdır:** "Bu görüntüləri beynəlxalq müstəviyə çıxararaq, Laçın yolundakı aksiya haqda "humanitar fəlakət" iddialarına qarşı istifadə edə bilərik. Qarabağdakı erməni əhali ilə üçüncü tərəf, yaxud separatçı-terrorçu rejim olmadan da təmaslar qura bildiyimizin təsdiqidir. Bu, həm də Qarabağdakı erməni əhali üçün siqnaldır və istisna deyil ki, belə ermənilərin sayı arta bilər. Həmin ermənin sonrakı taleyi ilə də maraqlanmaq lazımdır. Çünki inteqrasiya prosesinin qarşısını almaq üçün separatçıların onu "xain" çıxaracağı, həbs edəcəyi istisna deyil. Beynəlxalq təşkilatlara həmin mülki ermənin qorunması üçün müraciət etmək olar".

İsmayıl Qocayev

# "Heydər Əliyev İli" möhtəşəm olacaq

## Azərbaycanın bütün rayon və şəhərlərində Ulu Öndərin anadan olmasının yüz illiyi ilə bağlı silsilə tədbirlər reallaşacaq



**"Ulu Öndər Heydər Əliyev öz həyatının böyük hissəsini Azərbaycana, dövlətçiliyimizə, xalqımızın tərəqqisinə həsr edib". Bu sözləri "Şərq"ə açıqlamasında millət vəkili Naqif Həmzəyev deyib. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması ilə bağlı danışan deputat bildirib ki, Ümummilli Lider Heydər Əliyevin fərbaycançılıq məfkurəsinin müasir dövrdə işlənib hazırlanmasında müstəsna xidmətləri olub:**

"Azərbaycanımızın əvvəlcə keçmiş sovetlər ittifaqında, daha sonra dünya səviyyəsində tanıdılmasında Ulu Öndərin çox böyük rolu olub. Ümummilli Lider müasir Azərbaycanın qurucusudur. Ölkəmizin güclənməsinin, müstəqillik yolunda addımlamasının, davamlı şəkildə əldə edilən uğurların bünövrəsini qoyan dahi şəxsdir. Bu baxımdan 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi hər bir Azərbaycan vətəndaşı üçün sevindirici qərar oldu. Əksər dövlət qurumları, qeyri-hökumət təşkilatları təsdiqlənmiş Tədbirlər Planına uyğun işlərin həyata keçirilməsi üzərində ciddi çalışırlar. Cari ildə Ulu Öndərin adıyla bağlı idman yarışları, gənclər arasında turnirlər, elmi-beynəlxalq və yerli səviyyədə konfranslar keçiriləcək. Ulu Öndərin dəyərli irsinin öyrənilməsi və gələcək nəsillərə çatdırılması ilə bağlı bir çox maraqlı layihələrin şahidi olacağıq".

**N.Həmzəyev əlavə edib ki, bununla yanaşı, Ümummilli Liderin arzu və istəklərinin, vəsiyyətlərinin yerinə yetirilməsi ilə bağlı möhtəşəm cənab Prezident İlham Əliyevin böyük uğurlarına, möhtəşəm Zəfərə də mütləq yer ayrılacaq:** "Azərbaycanın bütün rayon və şəhərlərində Ulu Öndərin anadan olmasının yüz illiyi ilə bağlı silsilə tədbirlər reallaşacaq. Xüsusi medallar, ordenlər, mükafatlar təsis ediləcək. Xarici ölkələrdə Ulu Öndərin irsinin təbliği, öyrənilməsi ilə bağlı diaspor təşkilatları çoxsaylı layihələr həyata keçirəcəklər. Ulu Öndərin ən böyük arzularından biri Azərbaycanın müstəqil, güclü və qüdrətli dövlət olması, Qarabağ probleminin həlli idi. Bütün bu problemlərin həlli ilə bağlı cənab Prezident çox uğurlu siyasət həyata keçirtdi. Ulu Öndərin vəsiyyətləri yerinə yetirilir. Buna görə özümüzü xoşbəxt hesab edə bilərik ".

İsmayıl

# "Mən İmişlinin deputatı olaraq Leyla xanımı dəstəkləyirəm"

## Razi Nurullayev: "O, bizim məktəbə təhsil üçün göndərdiyimiz fidan balaların gələcəyi üçün həyəcan təbili çalıb"



**İmişli rayon Aranlı kənd 1 saylı tam orta məktəbinin müəlliməsi bir neçə gün öncə sosial şəbəkədə məsələ qaldırıb ki, məktəbdə tualet bərbad gündə olduğundan azyaşlı uşaqlar əziyyət çəkir. Bu səbəbdən də onların məktəbə gəlməsini məqbul saymayıb. Buna görə müəllimə töhmət verilib.**

Leyla adlı müəllim məsələ ilə bağlı videoaçıqlama yayıb. O, məktəb direktorunun ünvanına ittihamlar səsləndirib: "2-3 ay əvvəl çəkilib, kim yaydı bilmirəm. Amma xeyrimizədir. Məktəbin problemlərini gizlədirəmsə, mənə ayıb olsun. Amma siz gizlədirsinizsə, sizə eyib olmasın? Bir qarabağlı olaraq bunu etməliydim. Direkor deyir ki, Leyla müəllim məşhurlaşmaq istəyir. Müğənni deyiləm məşhurlaşım. Məktəbdə nə oldusa, siz gələndən sonra oldu. Siz orada banda yaratdınız, təhsilin səviyyəsi aşağı düşdü. O məktəbdə yeganə müəlliməm ki, şagirdlərinin bilik səviyyəsi yüksəkdir. Şagirdlərə görə hər şey edəcəm. Siz gəlib orada oturandan sonra hər şey dəyişdi. Qohumlarınızın adını yazdırıb, əlavə pullar alırsınız".

Qeyd edək ki, Mil-Muğan Regional Təhsil İdarəsindən bildirilib ki, vəziyyətlə maraqlanılıb və hazırda məktəbdə sanitar qovşaq təmir edilir: "Eyni zamanda yeni məktəb binasının tikilməsi nəzərdə tutulur. Bu il plana salınıb".

Mil-Muğan Regional Təhsil İdarəsi İmişli rayon Aranlı kənd 1 saylı tam orta məktəbində dərsi boykot edərək, ayaqyolu tikilənə qədər şagirdlərdən də məktəbə gəlməmələrini istəyən müəllim Nəcəfquliyeva Leyla Rəhim qızının töhmət alması ilə bağlı yayılan fikirlərə aydınlıq gətirib.

İdarənin İctimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı Vilayət Əliyev bildirib ki, müəllimin yayılan görüntülərə görə töhmət alması xəbəri həqiqəti əks etdirmir: "2022-ci ilin dekabr ayında özbaşına iki gün işə gəlməyib. O, əmək intizamını pozduğu üçün rəhbərlik tərəfindən töhmət alıb".

**Milli Cəbhə Partiyasının (MCP) sədri, deputat Razi Nurullayev isə "Şərq"ə açıqlamasında bu məsələni diqqətdə saxladığını və problemin aradan qaldırılması üçün müvafiq qurumlara müraciət edəcəyini deyib:**

"Bütün məktəblərdə bu və ya digər cəhətdən problemlər var. "Ayaqyolu yoxdur" deyən müəllimi məzəmmət etmək, töhmət vermək yolverilməzdir. Töhməti müxtəlif yollarla, hüquqi don geyindirməklə əsaslandırmaq olar və artıq bu edilir. Lakin hər kəs bilir ki, uşaqların məktəbə gəlməməsini istəyən müəllimə bunu ritorik olaraq deyir, məsələyə diqqət çəkir və çəkə də bilib. Bu, ayrıca bir



uğur hekayəsidir. O, dövlətə, hökumətə, xalqa və konkret şəxslərə qarşı çıxmayıb, o, bizim məktəbə təhsil üçün göndərdiyimiz fidan balaların gələcəyi üçün həyəcan təbili çalıb. Mən İmişli rayonunun deputatı olaraq Leyla xanımı dəstəkləyir və yanındayam. Hər kəs başa düşür və görür ki, yeni məktəblər tikilir, təmir edilir və elə müəllimənin işlədiyi Aranlı kənd məktəbi də bu il tikilməyə namizəddir. Amma bu, həqiqəti görüb susmağa, yalan danışmağa, yaltaqlanmağa və şəxsi mənfəətini düşünməyə əsas ola bilməz. Bütün Azərbaycan boyu məktəblərdə olan xırda problemləri həll etmək üçün əsaslı pul ayrılmasını, yeni məktəb tikintisini və saireni gözləməyə ehtiyac yoxdur".

**Millət vəkili Ceyhun Məmmədov isə Milli Məclisdə 2023-cü ilin büdcəsi müzakirə olunarkən bu məsələyə diqqəti çəkdiyini xatırladıb. Deputatın sözlərinə görə, son illər ölkə rəhbərliyinin müvafiq tapşırıqlarına əsasən ölkəmizdə yüzlərlə məktəb təmir və bərpa olunub, bu gün də bu işlər uğurla davam etdirilir:** "Ölkə rəhbərliyinin təhsilimizə diqqət və qayğısı ən yüksək səviyyədədir. Yeni açılan STEAM və uşaq-yaradıcılıq mərkəzləri bu fikri bir daha təsdiq edir. Ancaq onu da qeyd edək ki, bu gün bölgələrdə 1000-ə yaxın məktəb təmirsiz vəziyyətdədir. Hətta təmir olunan bəzi məktəblərdə bir sıra çatışmazlıqlar var. Bölgələrdə həqiqətən çox bərbad vəziyyətdə olan məktəblər var. Bölgələrə səfərim zamanı bunu dəfələrlə müşahidə etmiş, hətta aidiyyəti qurumlara müraciətlər də ünvanlamışam. Onların sürətli şəkildə təmirinə ciddi ehtiyac var.

Töhmət məsələsinə gəldikdə isə müəllimin uşaqlara məktəbə gəlməməklə bağlı çağırış etməsi düzgün deyil və qanun pozuntusudur. Ola bilsin, müəllim əsəbiləşib belə mövqe sərgiləyib. Müəllimə töhmət bu məqsədlə də verilə bilər.

Əgər töhmət müəllimə məsələni ictimailəşdirdiyinə görə verilibsə, bu, qəbuledilməzdir. Bütün hallarda məsələyə vaxtında reaksiya verilməli, həmin ayaqyolu aidiyyəti dövlət qurumları tərəfindən təmir edilməlidir. Bütün hallarda isə biz müəllimlərimizi sevməli və onları qorumalıyıq".

C.Məmmədovun fikrincə, aidiyyəti dövlət qurumları belə məsələlərə vaxtında və operativ reaksiya verməlidir və müzakirələr düzgün istiqamətdə aparılsın. Təhsilə qayğı hamımızın işidir. Hər birimiz təhsillə bağlı məsələlərə çox həssas yanaşmalıyıq: "Dövlət qurumları öz fəaliyyətlərində ictimaiyyətin haqlı narazılığını və fikirlərini nəzərə almalıdırlar. Zamanında verilməyən reaksiyalar dövlət qurumlarının özlərinin fəaliyyətinə inamı zədələyir. Burada söhbət bütün dövlət qurumlarından gedir. Təəssüf ki, son vaxtlar bəzi dövlət qurumlarının fəaliyyətində bu həssaslıq heç də həmişə müşahidə olunmur".

**Təhsil eksperti Kamran Əsədov deyib ki, müəllim cəmiyyət və dövlətin maraqları naminə öz peşə fəaliyyətini keyfiyyətlə və səmərəli yerinə yetirməyə borcludur. Müəllim bütün hallarda hər bir şəxs üçün vicdanlılıq nümunəsi olmalıdır:** "Məhz buna görə də ibtidai sinifdə dərs deyən müəllimin şagirdlərin yaş həddi və fiziki ehtiyacını nəzərə alaraq şagirdlərə ayaqyolu tikilməsini tələb etməsi anlaşılandır. Həyat və sağlamlığı üçün təhlükəsiz və zərərsiz təhsil şəraiti ilə təmin olunmaq hər bir şagirdin hüququdur. Dövlət şagirdlərin sağlam, rahat təhsil mühitini qurmağa borcludur, bu öhdəliyi müvafiq qurum yerinə yetirməyib.

Öncə məhz normal təhsil mühitini qura bilməyən təhsil idarəetmə orqanlarının rəhbərləri və əməkdaşlarını inzibati tənbehə cəlb etmək, ondan sonra özü üçün yox, xalqın övladı üçün etiraz edən müəllim barədə düşünmək olar".

Qanuna gəldikdə isə ekspert deyib ki, "Təhsil haqqında" qanuna və Müəllimlərin Etik Davranış qaydalarına görə, müəllim onun peşə vəzifəsinə aid olmadığı hallarda işlədiyi və digər təhsil müəssisələrinin, dövlət orqanlarının, onların rəhbərlərinin fəaliyyəti ilə əlaqədar (qanunsuz fəaliyyət istisna olmaqla) tənqidi ictimai mülahizələrdən, çıxışlardan və onların fəaliyyətinə ictimai qiymət verilməsindən çəkinməlidir. Məhz bu hala yol verməsi onun inzibati tənbeh tədbirlərinə cəlb etməyə əsas verir.

Şəymən



# Bir az da dözün

## Növbəti iki həftə ərzində viruslar səngiyəcək

**"Virus infeksiyalarının bu cür kütləvi yayılması bu ilə xarakterik deyil. Tarix boyu payız və qış aylarında görülən hadisədir. Fəsil dəyişkənliyi və havaların soyuması səbəbindən immun sisteminin zəifləməsi ilə əlaqədar olaraq infeksiyaların fəallığında artım müşahidə edilir. İlin bu mövsümündə həmişə bu halla üzləşmək mümkündür". Bu sözləri "Şərq"ə açıqlamasında həkim-infeksionist Natiq Əliyev deyib.**

Son dövrlər ölkədə virus kəskin respirator virus infeksiyalarının yuxarı və aşağı tənəffüs yolu xəstəliklərinin fonunda aktivləşdiyini vurğulayan həkim deyib ki, virusun növündən asılı olaraq əlamətlərdə fərqlilik də ola bilər: "Virus infeksiyalarının xarakterik xüsusiyyəti subfebril temperatur, bəzən də qəfildən başlanan 38 dərəcə S-dək yüksələn temperatur, boğaz ağrısı, burun axıntısı, kataral əlamətlər özünü göstərir. Mədə-bağırsaq sisteminin funksional problemləri olduqda ishal, qarın ağrısı kimi şikayətlər ön plana keçir. Bəzi infeksiyalarda, yuxarı tənəffüs yolu infeksiyalarına burunda tutqunluq, boğazda və udqunmada ağrı, halsızlıq, ümumi əzələ ağrıları isə bütün virus infeksiyalarına xas olan əlamətlərdir".

> Mövsümi xəstəliklərdən qorunmaq üçün mütləq şəkildə sentyabr-oktyabr aylarında qrip əleyhinə peyvəndlərdən istifadə olunmalıdır

*N.Əliyevin sözlərinə görə, mövsümi xəstəliklərdən qorunmaq üçün mütləq şəkildə sentyabr-oktyabr aylarında qrip əleyhinə peyvəndlərdən istifadə olunmalıdır.* Eyni zamanda düzgün maye balansı, yuxu rejimi, konservantlardan deyil, mövsümi qidalardan istifadə etmək immun sistemini gücləndirir. Belə sadə şərtlərə əməl etməklə virus infeksiyalarına qarşı döyüşkən orqanizm hazırlamaq mümkündür. Qapalı mühitdə çalışanlar vaxtaşırı olaraq otaqların havasını dəyişməlidirlər".

Yayılan qrip xəstəliyinin epidemiya xarakterli olmadığını vurğulayan həkim növbəti iki həftə ərzində virusların səngiyəcəyini deyib.

Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov isə deib ki, son 3 ildə infeksiyadan qorunmaq üçün əhali arasında "koronavirus davranışı", yəni təmasların sayının məhdudlaşdırılması, qapalı məkanlarda, ictimai nəqliyyatda maskanın geyilməsi, əl və respirator gigiyena qaydalarına əməl olunması, otaqların tez-tez havalandırılması, düzgün qidalanma və sağlam həyat tərzi vərdişləri formalaşıb. Risk qrupuna daxil olan şəxslərin qripə qarşı peyvənd olunması israrla tövsiyə olunur. Bunun üçün ərazi üzrə klinikaya müraciət etməlisiniz: "Son günlər əhali arasında hərarət, baş ağrıları, ümimi zəiflik, boğazda ağrılar, öskürək, burun axması və ya tutulması kimi və s. əlamətlərlə müşayiət olunan çoxsaylı xəstələnmə hallarına rast gəlinir.

**O bildirib ki, qeyd olunan şikayətlər digər kəskin respirator virus infeksiyalarının əlamətləridir:** "Bu infeksiyalar mülayim iqlimə malik ölkələrdə mövsümü qrip xarakteri daşıyır. Yəni hər ilin soyuq aylarında vəziyyət təkrarlanır. Bu mövsüm də istisna deyil. Yoluxmadan qorunmaq tədbirləri hava-damçı yolu ilə yayılan bütün infeksiyalar (qrip, koronavirus, digər respirator viruslar) üçün eynidir. Təsadüfi deyil ki, sərt karantin tədbirlərinin tətbiq olunduğu dövrlərdə qrip və bu tip virus infeksiyalarının da yayılma səviyyəsinin azalması müşahidə olundu. Beləliklə, viruslara qarşı əvvəllər əldə edilmiş, o cümlədən çarpaz immunitet son dövrlərdə yenilənmədiyi üçün müəyyən qədər zəiflədi. Buna görə də məhdudiyyətlərin aradan qaldırılması zamanı mövsümi infeksiyalara yoluxma hallarının artması gözlənilən idi".

Şəymən



hücum edib bayrağımızı təhqir edən qrupun rəhbəri Sadiq Şirazi vaxtilə İran rejiminə qarşı çıxıb ölkədən mühacirət edənlərin bir qisminin dini rəhbəri idi. Ancaq gördük ki, hakimiyyətə qarşı olsa da, hakimiyyətin ideoloji xəttinə qarşı deyil. Əksinə, onun ən mühafizəkar dəstəkçisidir. Odur ki, xaricə mühacirət edənlərin çoxu İranın gizli agentura şəbəkəsidir. Getdikləri ölkələrdə mütləq sünni-şiə fitnəsi yaradırlar. Bununla yanaşı həqiqi mühacirlər də milyonlarladır ki, onlar hətta rejimin repressiyalarından bezib islam dininə belə qarşı çıxmaqdan çəkinmirlər. Şübhəsiz ki, İran rejiminə Qərbdən dəstək olmasa, Fransa, Rusiya kimi dövlətlər əlini çəksə, xalq bir həftə-

# İranlılar rejimdən canlarını qurtarmaq üçün xaricə axın edirlər

## Əgər rejim dəyişikliyi və ya ciddi və köklü islahatlar aparılmasa vəziyyət daha da gərginləşəcək

**İranlılar Kanada, BƏƏ və Türkiyəyə axın edir. Statistika göstərir ki, son illər ərzində İran vətəndaşları Kanada, BƏƏ və Türkiyəyə ən azı 30-35 milyard dollar həcmində sərmayə yatırıblar. Məlumata görə, 2013-cü ildən 2021-ci ilədək Kanadada 76 min 381 iranlı vətəndaşlıq alıb və bu ölkəyə 19 milyard dollar həcmində sərmayə yatırıb. Birləşmiş Ərəb Əmirliklərində isə 545 min iranlı yaşayır.**

Onlar 2012-ci ildən indiyədək bu ölkəyə 900 milyon dollar sərmayə yatırıb. Türkiyədəki iranlılar isə 2015-ci ildən 2022-ci ilədək 35 min 558 ev alıblar. Milli Cəbhə Partiyasının sədr müavini, siyasi şərhçi Tural İrfan "Şərq"ə açıqlamasında bildirib ki, İran rejimi xalqa qarşı amansız repressiya həyata keçirir və dünyanın bir çox dövlətləri ilə neqativ münasibətlərə gətirib çıxaran siyasət yürüdür. Analitik deyib ki, məhz bunun nəticəsində əhali İranı tərk edir illərdir: "Hətta rejimin yüksək ranqlı məmurlarının övladları belə xarici dövlətlərdə yaşayır. İran rejimi özü də bilir ki, bu vəziyyət yaxşı nəticələrə gətirib çıxarmayacaq və hakimiyyətləri üçün ciddi təhlükə törədəcək. Ancaq əvvəllər də qeyd etdiyim kimi rejim əslə siyasətində dəyişiklik etmək niyyətində deyil. Sadəcə müvəqqəti aldadıcı jestlər edir. Hicab məsələsində guya yumşalmalar olduğunu göstərməyə çalışır, lakin xalq buna inanmır. Əgər rejim dəyişikliyi və ya ciddi və köklü islahatlar aparılmasa vəziyyət daha da gərginləşəcək. Əhalinin xaricə mühacirəti daha da geniş vüsət alacaq. İran rejimini ayaqda saxlayan Fransa kimi Qərb dövlətləri bu mühacirətlərdən narahat deyil. Çünki mühacirət edənlərin içində rejimin də əlaltıları kifayət qədərdir və getdikləri müsəlman ölkələrində rejimin ideoloji xəttini yayırlar. Məsələn, qardaş Türkiyədə şiəlik adı altında kifayət qədər iranlı məskunlaşıb və sünni-şiə fitnəsinin toxumunu çoxdan səpiblər. Din təbliğçiləri adı altında Gürcüstanda yerləşdirilən İran əsilli missionerlər artıq soydaşlarımızı parçalamağa nail olublar".

**T.İrfan qeyd edib ki, Rusiyada İranın agentləri oradakı soydaşlarımızın inanclı kəsimini şiəlik adı altında öz ideyalarına tabe edə biliblər:** "Yeni İrandan köçən insanların əksəriyyəti rejimdən narazı olsalar da, uzun illər ərzində onların ideologiyalarını mənimsəyiblər və istər-istəməz köçdükləri ölkələrdə təbliğat aparırlar. Məsələn, bu yaxınlarda Britaniyada səfirliyimizə nin içində istəyinə nail olar. Lakin müsəlman dünyasını sünni-şiə sindromu ilə balansda saxlamaq üçün Qərbin gizli dairələri əslə İran rejiminin çökməsinə yol verməz. Bu o zaman ola bilər ki, İran rejimini quran dövlətlər razılıq versin və İran rejimi çəkəndən sonra Suriya, Livan, Yəmən, İraq kimi şiə çoxluğu olan ölkələrin birində yeni, teokratik şiə dövləti yaradılsın. Məhz bundan sonra Amerika Birləşmiş Ştatları və digər Qərb dövlətləri İran rejiminin demokratik hakimiyyət ilə əvəzlənməsinə şərait yarada bilər. Dünyada müsəlmanların birləşməsi, həmrəyliyi Amerika və Qərb dövlətləri üçün ən ciddi qorxu hesab olunur. Ona görə İran rejimini yaradanda sünni dünyasına qarşı barışmaz mövqedə olan şiəliyin ən qatı qolunu fars hakimiyyətinin konstitusiyasına saldılar. Bu gün müsəlman aləminə qarşı yeganə ciddi təhlükə və təhdid İrandan gəlir. İstər Türkiyə, Pakistan, Əfqanıstan üçün olsun, istərsə də Azərbaycan üçün.

Ona görə yerli əhali İranı tərk edir və bilir ki, bu rejim ancaq öz qəddarlığı, amansızlığı ilə öz xalqını yox, maraqlarını düşünür".

İsmayıl Qocayev

# 2023-cü ildə bir çox tarixi hadisələrin şahidi olacağıq

## Türkiyənin milli döyüş təyyarələrinin istehsal prosesində Azərbaycan mütəxəssisləri də yaxından iştirak edəcək



**Türkiyə Azərbaycanı bu ölkənin milli döyüş təyyarəsinin istehsalında iştirak etməyə dəvət edib. Bunu bazar günü Türkiyənin Prezident Administrasiyası yanında Müdafiə Sənayesi İdarəsinin rəhbəri İsmayıl Dəmir deyib. Onun sözlərinə görə, Türkiyə dost və qardaş ölkələrin müxtəlif səviyyəli müdafiə-sənaye layihələrində tərəfdaş kimi iştirakına açıqdır:** "Dost və qardaş ölkələri milli döyüş təyyarəsi layihəsində iştirak etməyə dəvət edirik. Bu ölkələrə İndoneziya, Pakistan, Malayziya və Azərbaycanı aid etmək olar". O vurğulayıb ki, belə bir tərəfdaşlıq bütün tərəflər üçün faydalı olacaq.

**Ehtiyatda olan polkovnik, hərbi ekspert Üzeyir Cəfərov "Şərq"ə bildirib ki, "bir millət, iki dövlət" prinsipi hər gün daha da reallaşmaqdadır. Ekspert vurğulayıb ki, 2023-cü ildə bir çox məqamın şahidi olacağıq:** "Birgə hərbi təlimlərlə yanaşı, ortaq təyinatlı hərbi məhsulların istehsalı da mümkündür. Türkiyənin milli döyüş təyyarələrinin istehsal prosesində Azərbaycan mütəxəssisləri də yaxından iştirak edəcək. Burada mütəxəssislərimizin hərbi avadanlığın yığılmasında, onun ayrı-ayrı komponentlərinin istehsalında iştirakından söhbət gedir. Böyük ehtimalla Türkiyəyə məxsus hərbi təyyarələrin hər hansı kiçik detalı Azərbaycanda da hazırlanacaq. Məsələn, elektronik hissələrdən bəziləri ölkəmizdə istehsal oluna bilər. Hələ SSRİ dönəmində Azərbaycanda bu ənənə var idi. Sovet vaxtı Azərbaycanda hərbi təyinatlı tibbi elektronik məhsullar hazırlanırdı. Düşünürəm ki, Qardaş Türkiyənin milli döyüş təyyarələrinin hazırlanması prosesində Azərbaycan da olacaq. Əlbəttə, həmin təyyarələrin bütövlükdə Bakıda yığılması qeyri-mümkündür. Bizdə o imkanlar, uzun illərin təcrübəsinə malik hərbi müəssisələr yoxdur. Azərbaycanın prosesə töhfəsi mütəxəssislərin iştirakı və müəyyən detalların hazırlanması ola bilər".

İsmayıl Qocayev

# İvanişvili hakimiyyəti ölən adamı əfv etməyəcək

## Saakaşvili hələ uzun müddət yaşamalıdır ki, onun yolu ilə getmək istəyənlərin gözü tam qorxsun





**Saakaşvilinin müalicə üçün Polşaya aparılmasına icazə verilməyib. Polşa seyminin vitse-spikeri Malqorzata Qosievska deyib ki, Polşa Gürcüstanın sabiq prezidenti Mixeil Saakaşvilinin sağlamlığı üçün mübarizəsini dayandırmayacaq.**

O bildirib ki, Saakaşvilinin Polşada müalicəsi üçün dəfələrlə müraciət edilib. Saakaşvilinin dünyanın gözü qarşısında öldüyünü deyən vitse-spiker buna görə Gürcüstan hökumətini ittiham edib. O əlavə edib ki, Polşa Prezidenti Andjey Duda, Baş nazir Mateuş Moravietski, həmçinin xarici işlər naziri Zbiqnev Rau da daxil olmaqla, Polşanın hökumət nümayəndələri Gürcüstanla ikitərəfli danışıqlar zamanı dəfələrlə Saakaşvilinin həbsi məsələsini qaldırıb. O, əlavə edib ki, həm danışıqlar zamanı, həm də məktublarla Gürcüstan tərəfinə Saakaşvilinin müalicəsi üçün Polşaya aparılması təklif edilib, lakin buna icazə verilməyib.

**BAXCP sədrinin müşaviri, politoloq Azər Qasımov "Şərq"ə açıqlamasında bəyan edib ki, Saakaşvili Gürcüstandan çox ümumən postsovet məkanının gələcəyi baxımından əhəmiyyətli fiqur idi. Ekspertin fikrincə, onun Gürcüstanda, sonra da Ukraynadakı fəaliyyəti postsovet ölkələri cəmiyyətlərinin gələcək inkişafının bir növ nümunəsi idi:** "Bu cəmiyyətlər gələcəklərini qurmaq istədikləri quruluşda Saakaşvilinin yaratdığı demokratik, korrupsiyasız cəmiyyət modelini özlərinə nümunə götürmək istəyirdilər. Ən azı buna nail olmağın mümkün olduğu gerçəyini ayani şəkildə görürdülər. Bu da Rusiyanı narahat edirdi. Saakaşvilinin başına gələnlərə bu kontekstdən yanaşmaq hesab edirəm ki, doğru olardı. Təbii ki, Saakaşvili də müəyyən səhvlərə yol vermişdi. Amma ümumən onunla belə davranılması doğru deyil. Görünən odur ki, Saakaşvili çox idealist və sadəlövh insan oldu. Xüsusən də Gürcüstana qayıdıb, yüz illik bir sistemin dəyərlərini yıxacağına sadəlövhcəsinə əmin olmaqla.. İndi də bunun cəzasını çəkir. Saakaşvilinin durumunun ağır olacağı qənaətindəyəm. O, hesab edirəm ki, qurban seçilib".

**A.Qasımov vurğulayıb ki, indiki geosiyasi durumda Avropa və Qərbin, xüsusilə də, Ukrayna məsələsində Rusiyaya qarşı cəbhə almış Polşa rəsmilərinin çağırışlarının nəticə verəcəyi isə mümkünsüz görünür:** "Saakaşvili gürcü hökuməti üçün sinfi düşməndir. Təbii ki, Rusiya ilə bağlı İvanişvili hakimiyyəti üçün də arzuolunmaz şəxsdir. Hesab edirəm ki, Saakaşvili həbsdən heç bir şərtlər daxilində azad edilməyəcək. Amma onun müalicəsi və həbsdə qalması üçün addımlar atılacaq. Saakaşvili hələ uzun müddət yaşamalıdır ki, onun yolu ilə getmək istəyənlərin gözü tam qorxsun".

İsmayıl Qocayev

# Fransa hökuməti etirazları vəhşiliklə yatırır

## Turab Rzayev: "İnflyasiya xalqın alış gücünü azaltdı və kommunal xərclərin artması əhalinin kasıb təbəqəsi üçün ciddi fəsadlar törətdi"



**Fransanın paytaxtı Parisdə inflyasiyaya qarşı "Sarı jiletlilər"in etirazları başlayıb. Nümayişdə minlərlə insan iştirak edib. Etirazçılar ölkədə inflyasiyanın artmasından, pensiya islahatlarından narazıdırlar.**

Hərəkatın tərəfdarlarından biri deyib ki, Fransada yoxsullar sıxıntı içindədir, onlar müalicə, keyfiyyətli yemək və elektrik haqqını ödəyə bilmirlər.

**Fransa hökumətinin ciddi səhvləri olduğunu deyən siyasi şərhçi Turab Rzayev "Şərq"ə bildirib ki, onlar vaxtında alternativ enerji mənbələri tapmadıqları üçün Rusiyadan asılılıq yaranıb:** "Fransa çox bahalı enerji alır. Bu isə daxili bazara təsirsiz ötüşmür. Onlar münaqişənin əvvəlində Kremlə dəstək verməklərinə rəğmən ucuz enerji ala bilmədilər.

Bu isə həm ərzaq və enerjinin qiymətində, həm də istehsalın maya dəyərinin artması zəminində xərclərin çoxalmasına gətirib çıxardı. Yəni inflyasiya xalqın alış gücünü azaltdı və kommunal xərclərin artması əhalinin kasıb təbəqəsi üçün ciddi fəsadlar törətdi. Biz hətta yaşlı nəslin nümayəndələrinin qızına bilmədiyi üçün öldüklərinin də şahidi olduq. Bu isə ölkədə böyük narazılıqlar yaradır.

Ümumiyyətlə, Fransa vaxtında ərzaq məhsulları üzrə strateji ehtiyatlar yaratmalı idi. Eyni zamanda əhalinin həssas təbəqəsi üçün enerjiyə ucuz qiymətlərlə çıxış təmin olunmalı idi. Yaxud da ən azından həssas təbəqənin zərər çəkməməsi üçün onlara alternativ enerji mənbələri verilməli idi.

Məsələlərə vaxtında nəzarət edilməməsi, Fransa kimi sosial cəmiyyətdə böyük etirazlara səbəb olur. Nəticədə də hökumət mitinqləri güc hesabına və vəhşiliklə yatırır".

Nihat Müzəffər



vericidir:

"Bunun üçün ciddi konsepsiya hazırlanmalıdır. Qayıdış konsepsiyası beynəlxalq hüquq normalarına uyğun olmalıdır və qarşı tərəfi bu işi həyata keçirməyə məcbur edəcək sənədlərlə əsaslandırılmalıdır. BMT-nin öz vətənindən qovulub çıxarılmış əhali ilə bağlı konvensiyalarına uyğun fəaliyyətlər olmalıdır. Təbii ki, ayrı-ayrı illərdə Qərbi azərbaycanlıların Ermənistandan deportasiyası ilə bağlı verilən qərarlarla bu konvensiyalar uyğunlaşdırılmalıdır. Əlbəttə, tarixi gerçəkliklər, faktlar, müxtəlif araşdırmalar da bu işin təbliğatında işimizə yarayacaq. İTC olaraq biz də bu sahədə əlimizdən gələni etməyə hazırıq. Artıq Qərbi azərbaycanlıların geri dönüşü ilə bağlı siyasi iradə var. Cəmiyyətimiz və qurumlarımız bu işi reallaşdırmaq üçün tədbirlər görməlidir. İlk iş Qərbi azərbaycanlıların qaçqınlıq statusunun bərpası olmalıdır".

İsmayıl

# "Biz də əlimizdən gələni etməyə hazırıq"

## Qafar Çaxmaqlı: "Artıq Qərbi azərbaycanlıların geri dönüşü ilə bağlı siyasi iradə var"

**"Prezident İlham Əliyevin bu məsələyə önəm verməsi Qərbi azərbaycanlıların öz tarixi vətənlərinə geri dönüşünə müəyyən əsaslar yaradır".**

Bu barədə "Şərq"ə açıqlamasında Türkiyənin Erciyes Universitetinin professoru, İrəvan Türk Cümhuriyyəti (İTC) Millət Şurasının sədri, ermənişünas alim Qafar Çaxmaqlı deyib. Professor bildirib ki, dövlətin bu məsələdə qərarlılığı ümid-

# Unun qiyməti gərək 30-35 manata qədər düşsün

## Bu zaman çörəyin qiyməti ucuzlaşa bilər



**Azərbaycana idxal edilən buğdanın qiyməti son bir neçə ayda enməkdədir. Artıq ölkədə bəzi un növlərinin qiyməti ucuzlaşıb. Belə ki, "Karat Holding" bir kisə "Karmen" ununun qiymətini 41 manatdan 38 manata endirib.**

Bəs, bu addımdan sonra çörəyin də ucuzlaşması gözlənilirmi?

Trend-in əməkdaşı bir neçə çörək sexi ilə əlaqə saxlayıb. Sahibkarlar bildiriblər ki, unun qiymətində çox cüzi ucuzlaşma baş verib. Unun bir kisəsinin qiymətində 2-3 manat aralığında ucuzlaşma olub. Belə ucuzlaşma çörəyin qiymətinə təsir edəcək həddə deyil. Unun qiyməti 30-35 manata qədər düşərsə, çörəyin qiyməti ucuzlaşa bilər.

Məsələ ilə bağlı iqtisadçı-ekspert Eyyub Kərimli Trend-ə bildirib ki, unun qiymətinin ucuzlaşmasının çörəyin qiymətinə təsiri olmayacaq.

"Dünya bazarında taxılın qiymətinin ucuzlaşması nəticəsində buğdanın maya dəyəri aşağı düşüb. Yeni qiymətlərlə olan taxıl ölkəmizə yenicə gətirilib. Bu da ölkəmizdə unun qiymətinin ucuzlaşması il nəticələnib. Lakin hazırkı şəraitdə çörəyin qiymətinin ucuzlaşması real deyil. Belə ki, çörək üçün istifadə olunan xammal təkcə undan ibarət deyil. Onun daxilində çoxsaylı inqrediyentlər var ki, onların qiymətinin dəyişməsi də çörəyin qiymətinə təsir göstərir. Bundan başqa, daşınma, enerji xərcləri, işçilərin əməkhaqqısı da qiymətə təsir göstərir", - ekspert qeyd edib.

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov da Trend-ə açıqlamasında deyib ki, ucuzlaşma çörəyin qiymətinə təsir edəcək həddə deyil.

"Hər kiloqram unun qiymətində təxminən 2 qəpik ucuzlaşma var. Unun qiyməti əhəmiyyətli dərəcədə ucuzlaşmalıdır ki, çörəyin də qiyməti ucuzlaşsın", - o əlavə edib.




# Gümrüdəki hadisələr hələ başlanğıcdır

## Rusiyanın hərbi bazası qarşısında aksiyaya birbaşa Ermənistanın baş naziri şərait yaradıb

**Ermənistanın Gümrü şəhərindəki Rusiyanın 102-ci hərbi bazasının qarşısında Rusiya əleyhinə aksiya keçirilib. Etirazçılar Rusiya hərbi bazasına gedən yolu bağlayıblar. Laçın dəhlizində yaranmış vəziyyətə görə sülhməramlıları ittiham edən aksiyaçılar Rusiya, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı əleyhinə şüarlar səsləndirirlər.**

Aksiyada 100-dən çox adam saxlanılıb. "Milli demokratik qütb" təşkilatının üzvü Vahe Qasparyan bildirib ki, Rusiya hərbçilərini "işğalçı" elan edə bilərlər: "Biz dünyaya göstərəcəyik ki, Ermənistan 102-ci baza adı ilə Rusiya qoşunları tərəfindən işğal edilib".

**"Atlas" Araşdırmaları Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirib ki, Nikol Paşinyan polisə Ermənistanın Gümrü şəhərində Rusiya hərbi bazası yaxınlığında keçirilən aksiyada iştirak edənləri həbs etmək əmri verməklə Kremlə göstərmək istəyib ki, guya, onun bu aksiya ilə əlaqəsi yoxdur. Analitikə görə, Kreml və onun Ermənistandakı əlaltısı olan "Qarabağ klanı" fərqli düşünür:** "Qarabağ klanı" simasında müxalif siyasətçilər açıq bildiriblər ki, Rusiyanın hərbi bazası qarşısında aksiyanı birbaşa Paşinyan təşkil etməsə də, Ermənistanın baş naziri etiraza şərait yaradıb. Bunda həqiqət payı var. Birincisi, Paşinyan istəsəydi etirazın qarşısını etirazçılar hərbi bazaya yürüşə başlayarkən ala bilərdi. İkincisi, Paşinyan Rusiya hərbi kontingentinin Laçın yolunu açmamasından narazıdır. Paşinyan istəyinə nail olmadıqda Gümrüyə gedən erməni etirazçılar Rusiya hərbi bazasına gedən yolu bağlamağa cəhd ediblər. Sanki Paşinyan Moskvaya demək istəyib ki, "biz də sizin yolunuzu bağlaya bilərik". Üçüncüsü, Gümrü hərbi bazasının qarşısındakı şüarlarda Rusiya və Kreml sahibi Vladimir Putin əleyhinə aşağılayıcı şüarlar səsləndirib. Bu etirazla Paşinyan Kremlə demək istəyib ki, Laçın yolunu açmasaz, Ermənistanda Rusiya əleyhinə narazılıq artacaq. Rusiyadakı siyasi dairələr Nikol Paşinyanın ABŞ və Fransa ilə daha da yaxınlaşmaq üçün Rusiya əleyhinə bəhanə axtarmasından şübhəlidirlər. Növbə Kremlindir. Rusiyadakı dairələrin Nikol Paşinyanı cəzalandırmağın yeni üsulları barədə düşündüklərini ehtimal etmək olar. Kremlin Rusiya hərbi kontingentinin Qarabağdakı səlahiyyətlərini tədricən Azərbaycan Ordusuna təhvil verməsi Paşinyana ən ağır zərbə olar".

***"Növbə Kremlindir. Rusiyadakı dairələrin Nikol Paşinyanı cəzalandırmağın yeni üsulları barədə düşündüklərini ehtimal etmək olar"***




**İsmayıl Qocayev**

# "Mən də öz halal evimizdə yaşamaq istəyirəm"

## Səriyyə Müslümqızı: "Erməni separatçılarına dəstək verənlər, buyursunlar, mənim də haqqımı qaytarsınlar, hüququmu bərpa etsinlər"

**Ekokönüllülərin Xankəndi-Laçın yolundakı dinc etiraz aksiyası artıq 1 aydır davam edir. Qısaca xatırladaq ki, etiraz aksiyası Azərbaycanın Qarabağ iqtisadi rayonunda faydalı qazıntı yataqlarının qanunsuz istismarına qarşı keçirilir. Azərbaycan vətəndaşları, ictimai institutların təmsilçiləri faydalı qazıntı yataqlarının bir qrup separatçı tərəfindən qanunsuz istismarına və təbiətin məhvinə son qoyulmasını tələb edirlər.**

2022-ci il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmadı. Buna cavab olaraq da ictimaiyyət nümayəndələrinin etiraz aksiyası başladı. Aksiyanın keçirildiyi ərazidə dünən fotosərgi təşkil olunub. Sərgidə Ermənistan silahlı qüvvələrinin və Ermənistan hakimiyyətinin Azərbaycan torpaqlarını işğalda saxladığı müddətdə ərazilərin necə talan olunması öz əksini tapıb.

**Əslən Xocalıdan olan jurnalist, publisist, Erməni Təcavüzünün Tanıdılması İctimai Birliyinin sədri, Qarabağ müharibəsi veteranı Səriyyə Müslümqızı "Şərq"ə açıqlamasında aksiyanı ilk gündən dəstəklədiyini dedi:**

- Xocalı inzibati ərazi vahidi kimi rəsmi olaraq 1991-ci ilin noyabrında Əsgəran rayonunun bazasında yaradıldı, o vaxt da Xocalıya şəhər statusu verildi. Xocalı Xankəndinin 14 kilometrliyində yerləşir. İstər Xankəndi, istərsə də Xocalı, hər biri bizim Vətənimizdi, doğma torpağımızdı. Necə ki illərdir ermənilər Xankəndidə yaşayır, bizim də öz evimizdə, yurdumuzda yaşamaq haqqımız var. İllərdir evimizi görmək istəyirəm, bu həsrətlə yaşayıram. Bilmirəm, ömür vəfa edəcəkmi? Xocalıya gedə bilsəm... Amma orda param-parça olan xatirələr var. Orda dərd var. Dərddən beli bükülmüş evim var, elim var. Amma nə olursa-olsun, necə olursa-olsun, görmək istəyirəm. Bu mənim haqqımdı. Mənim kimi milyonlarla yurddaşımızın haqqıdır. Xocalı əvvəllər qəsəbə idi. Yenicə şəhər statusu verilmişdi deyə hələ ünvanlar yazılmamışdı, qeydiyyat aparılmamışdı. Bizim evimiz "Köhnə Xocalı" deyilən ərazidədir. Ev anamın adına idi - Cəfərova Rəfiqə İman qızı. Sonrası məlumdu, nankor qonşularımız nələr etdi. Artıq 1 aydır ictimai fəallar Xankəndi-Laçın yolunda dinc aksiya keçirir. Sülhməramlılara məxsus neçə-neçə maşın hər gün o yoldan maneəsiz keçib gedir. Aksiya dinc olsa da, mən hər an bu "sülhməramlılardan" hər cür pozucu hərəkət gözləyirəm. Çünki onlar vaxtilə bizi müdafiə etmədilər, əksinə, erməni separatçılarının biz xocalıları daş-qalaq etməsinə göz yumdular. O vaxt ermənilər bizim magistral yolla hərəkət edən maşınlarımıza daş atırdılar, yolu kəsirdilər, maşınların hərəkətinə mane olurdular. Xocalı camaatını döyüb qol-qabırğalarını sındırmışdılar. Amma biz indi də insanlığımızı göstəririk, ehtiyacı olan ermənilərə əl uzadır Azərbaycan insanı. Kor olmuş dünya görsün bunları.



**S.Müslümqızı aksiyada iştirak etməyə hazır olduğunu dedi:**

- Mən də əlimə plakat alıb Xankəndi yolunda dayanmağa hazıram. Mən də evimə getmək, öz halal evimizdə yaşamaq istəyirəm. Erməni separatçılarına dəstək verənlər, buyursunlar, mənim də haqqımı qaytarsınlar, hüququmu bərpa etsinlər.

**Məlahət Rzayeva**

# Direktorlar məktəbləri bazara çeviriblər

## Təhsil ocaqlarında kağız satılır, direktor var ki, məktəbə printer alıb, müəllimlərə, şagirdlərə pul ilə istifadə elətdirir

**Məktəblərdə summativ qiymətləndirmə üçün kağız pulu toplanır. Hadisə Naftalandakı orta məktəblərdən birində baş verib. Sosial şəbəkədə Naftalanda məktəb direktorunun "Summativ pulu" istəməsinin səs yazısı yayılıb. Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin Naftalan rayonu üzrə sektor müdiri də qeyd edib ki, məktəblərə kağız verilib, niyə pul yığılır, məsələ araşdırılacaq. Qruplarda da direktorları yıxıb sürüyürlər ki, kağız verilir, amma direktor vermir.**

Dünya robotlarla, PUA-larla məşğul olduğu zamanda bizim məktəblərin hələ də kağız problemi yaşaması ən azından gülüncdür. Bəs nə oldu kompüterləşmə, internetləşmə, müasirləşmə, "steam", filan?.. Hər məktəbə şagird sayına görə (çünki hər summativ - yoxlama işi üçün hər şagird ən azı 1-2 A4 formatlı kağızistifadə edir) nə qədər vərəq verilməlidir və bu vərəqlərin sonrakı aqibəti necə olur, görəsən? Heç nə! Vərəqlər yazılır, yığılır, br müddət hardasa toplanır, sonra bildiyimiz makulaturaya çevrilir, məktəb həyətlərinə atılır, sonra da göydə uçuşur. Amma hesab-kitabda "filan qədər vərəq istifadə olundu", yazılır və bu vəsait dövlət büdcəsindən çıxır.

**Təhsil eksperti Elşən Ramizoğlu "Şərq"ə açıqlamasında qeyd etdi ki, heç bir halda şagirddən summativ və digər məsələlər üçün pul tələb edilməməlidir.** Bu, yolverilməzdir. Ancaq problem bundadır ki, məktəblərə verilən kağız kifayət qədər deyil. Məktəblərə verilən kağız bütün məktəb üzrə ikinci summativ qiymətləndirməyə heç kifayət etməz. Sektor müdirinin o cür çıxış etməsi doğru yanaşma deyil, ən azından deyilərdi ki, məsələ araşdırılacaq. Kağız verilməyinə verilir, ancaq nə qədər verilir, deyən yoxdur. Direktor var kağızı satır, direktor var ki, məktəbə printer alıb, müəllimlərə, şagirdlərə pul ilə istifadə elətdirir, bazara çevirib öz qazancını qurur, direktor var, bufetdə satdırır. Yəni bu kimi hallar bütün məktəblərdə olmasa da, bütün regionlarda demək olar ki var. Səs yazısı yayılan direktor də uşaqdan pulu elə istəyir ki, sanki, belə də olmalıdır. Birinci növbədə kağız ilə məktəb tam təmin olunmalıdır. Tam təmin olunmursa, burada direktor istər istəməz cibindən xərc çəkməlidir və ya müəllimlərdən də kömək istənilə bilər. Yəni "müəllimlər, bu qədər kağız verilib, istifadə olunub, bitdi, mən də yenidən aldım, yenə çatmadı, zəhmət olmasa, imkanı olan şəxs 1 paçka alsın, imkanı az olanlar iki müəllim ilə birləşib kağız ala bilər və s. Tələb yox, xahiş edə bilər. Müəllim də istəsə edər, istəməsə etməz. Kağızın qiyməti minimum 8 manatdır. 5 paçka alanda 40 manat edir. Mən necə etmişəm demirəm, kimsə deməsin özünü tərifləyir. Nəticəyə gəldikdə istər müəllim olsun, istər şagird, pul istənilməsi yolverilməzdir.



*E.Ramizoğlu qeyd etdi ki, məktəblərdə kağız probleminin yaranmasının əsas səbəbi summativ qiymətləndirmələrin keçirilməsində külli miqdarda ağ vərəqlərə ehtiyac yaranmasıdır:*

- Summativ qiymətləndirmələrdə təbii ki, kağıza ehtiyac yaranır. Hər şagird sayına görə bir summativdə 1 ədəd A4 vərəqi istifadə olunur. Avadanlıqları olan məktəblərdə elektron üsuluna keçiddən istifadə edilir. Ancaq bu, ümumi faiz nisbəti ilə çox azdır. Hesab edirəm ki, elektron variant daha əlverişlidir, həmçinin bu kağız, əlavə yazılarla yüklənmək problemlərini də köklü həll edər.

Yaşanan problem barədə rəy bildirənlər ölkədə təhsilin acınacaqlı durumda olduğunu yazıblar. Sosial şəbəkə istifadəçiləri bildirir ki, summativ ideyasını tərtib edənlər əvvəlcə tələb olunacaq ləvazimat haqqında da düşünməliydilər. Ümumiyyətlə, kağızdan istifadəni minimuma endirmək haqda düşünülsə, daha yaxşı olar. Kompüterləşmə inkişaf etməlidir. Elektron sistemə nə vaxt keçid etməyi düşünürlər? Dünyanın sonu olanda?! Rəy bildirənlər kağızın problemin yalnız biri olduğunu, printer, katric, katricin doldurulmasının da problemə çevrildiyini yazıblar:

**Rübabə Abdullayeva:** Ay müəllim, bu kağız alındı, tapıldı və s. Əsas printer və katric məsələsidir. Qarşıdan BSQ gəlir. Hər məktəb müxtəlif üsullarla həll etməyə çalışır. Amma əsas odur ki, bu məktəbin problemi evlərə, valideynlərin ciblərinə girməsin.

**İsa İbadov:** Rübabə Abdullayeva, xahiş edirəm yazın, katrici neçə doldurur və tozunu hardan əldə edirsiz? Bu işi özüm etdiyim üçün əziyyətli olduğunu bilirəm. Tozu da qaldırıb 5-6 manat ediblər, katriçi 10-12 manata doldururlar.



***Təhsil eksperti qeyd edir ki, məktəblərdə kağız probleminin yaranmasının əsas səbəbi summativ qiymətləndirmələrin keçirilməsində külli miqdarda ağ vərəqlərə ehtiyac yaranmasıdır***

**Zamin Babayev:** Bu summativ problemi illərdir həll edilmir. Ya kağız olmur, ya da printer. Regional idarəyə printerlə bağlı 2 ay olar müraciət etmişəm, hələ heç bir nəticə yoxdur.

Nailə Səidə Cəfərova: Uşaqlar keçmişdə yoxlama dəftərini evdən gətirdikləri kimi summativ üçün vərəqlərini də evdən gətirsinlər, problem həll edilsin.

**Azər Həsrət:** İş ondadır ki, uzun illər ərzində məktəblərin təminatı mənimsənilib. Bu işi təhsil idarələrindəki bəzi şərəfsiz məsul şəxslərlə məktəblərin təsərrüfat müdirləri birlikdə ediblər və təəssüf ki, hələ də edənlər qalır. Odur ki, hazırda Bakı məktəblərindən birində cəmi 3 sinif bitirmiş təsərrüfat müdirini (onun necə bu vəzifəyə təyin edilməsi də araşdırılmır nə sirdirsə) işdən çıxara bilmirlər. Açıq şəkildə hamını şantaj edir ki, sizinlə birlikdə söküb-dağıtdığımı deyəcəyəm. Əslində isə Azərbaycan dövləti o gündə deyil ki, məktəblərin təchizat və təminatını gerçəkləşdirə bilməsin. Yəni demək istəyirəm ki, məktəblərə verilməli olan təminat malları, vəsaitlər mənimsənilir. Direktorların çoxu da rüşvətə qurşandığı üçün bunun qarşısında səsini çıxara bilmir, müəllimləri və şagirdləri məcbur edir ki, kağız, süpürgə, nə bilim, lampa alsınlar. Yəni əsas dilənçilər daha yuxarıda oturublar və dövlətin onlara göstərdiyi etimaddan sui-istifadə edərək belə iyrənc hallara səbəb olurlar...

**Cəmilə İbrahimli:** Mən printer üçün cibimdən xərc çəkib Gəncəyə aparıb düzəltdirmişəm.

**Nur Ay:** Ümumiyyətlə, mən təklif edirəm ki, məktəbə göndərilən bütün məhsulun üzərində "Satışı qadağandır" yazılsın, hərbidəki kimi, bəlkə bu neqativ hal aradan qalxar.

**Gültəkin Həzisoy:** Kağız 10-11 manat olub. 7 ildir özüm etmişəm test işini. Valideynlər də sağ olsun, elə bilirlər ki, borcumdur artıq.

**Vüsalə Rüstəmova:** Xərci azaltmaq üçün KSQ və BSQ-lər kompüterdə olmalıdır. Hər il ona görə fond pulu yığırıq, valideynlər də narazılıq edir.

**Nərminə müəllimə:** Bizim məktəbdə "dədə-baba" yoxlama dəftəri qaydasında yazdırırıq summativi... Nə şiş yanır, nə kabab...

**Müəllimə Xanım:** Şagird kömək edəndə nə olar ki?! Təbii ki, könüllü. Biz şagird olan zaman yoxlama yazı, ifadə, inşa dəftərlərini özümüz verirdik müəllimə. Riyaziyyatdan il ərzində 2-3 dəftər olurdu hətta. Hər şeyi yükləyək yazıq müəllimin üstünə!

**Şaiq Məmmədov:** İndiyədək (sentyabrdan bugünədək) mənə məktəb tərəfindən 600 ədəd A4 verilib, 1-11-ci siniflər üçün... 1 paçka da özüm almışam, hamısı bitib.. Hələ BSQ qabaqdadır.

**Aytən Əsgərova:** Kağız "paçkası" 10 manat olub. Katricin mürəkkəbini 7-8 manata doldururlar. Mən özüm edirəm. Məktəblərə bəlkə də ayrılır. Kimlər yeyir, məlum deyil. Sanki şagirdin borcu imiş kimi summativ pulu tələb etmək doğru deyil. Tələbi nazirlikdən istəmək lazımdır. Əvvəl dəftərə yazılırdı. Üstəlik, müəllimlərə yazı işi pulu verilirdi. İndi yoxdur. Müəllim var az maaş alır. Aldığını da kağız-kuğuza verir.

**Samir Həsənov:** Summativi adi dəftər kağızında yazdırmaq olmaz?

**Sahin Məmmədov:** Məktəblərə kağız ayrılır. Məktəb direktoru maliyyəçidən asılı deyilsə, o, kağızı və digər vəsaiti olduğu kimi rahatlıqla ala bilir. Əks təqdirdə, günah direktordadır.

**Mayil Ağaxanov:** Regional təhsil idarələri Elm və Təhsil Nazirliyinin pul yığım idarələridir. Mənim 3 uşağım məktəbdə oxuyur. Hər uşaga gorə tədris ilinin əvvəlindən məndən 11 manat summativ pulu alıblar! Bu pulun yığılmasından başda nazir olmaqla hər kəsin məlumatı var! Amma əncam çəkilmir və inanmıram da bundan sonra nə vaxtsa buna son qoyulsun! Çünki barmaqla sayılası qədər tanıdığım məktəb direktoru (biri də Sizsiniz) var ki, regional təhsil idarələri imkan vermirlər ki, onlar işləsinlər!

**Əlihuseyn Yaqubov:** Təhsil Qanunundan "Valideynlərin hüquq və vəzifələri" hissəsindən bir bəndə baxsaq, (34.1.4. təhsil müəssisəsi ilə əməkdaşlıq etmək, tədris prosesinin təkmilləşdirilməsi və maddi-texniki bazasının yaxşılaşdırılması üçün təkliflər irəli sürmək və könüllü yardımlar etmək) sizin dediyiniz kimi, heç kim bu işə məcbur edilə bilməz, amma valideyn də bu işdə könüllü olaraq dəstək ola bilər. Ümumi olaraq bu işdə bizim bəxtimiz gətirib, çünki insanlara qanunları izah etdikdə anlayışla qəbul edirlər. O ki qaldı səs yazısına, orada insanlara konkret olaraq hökm oxunur.

**Aytən Ağalarova:** Kağız nə qədər verilir? 500+ şagirdi olan məktəbi 15 paçka görərmi sizcə? Bunun məktəb sənədləşməsi var, monitorinqi var. Hər sinfə 1 ədəd versək belə say çatmır 22 sinif üzrə.

**Aynur Qurbanova:** Tək kağızla iş bitmir. Printer də lazımdır. Printer məktəblərə verilir. Amma məktəbin bütün şagirdləri üçün testləri bir printerlə yəqin ki, çatdırmaq olmaz.

**Zamin Təhməzov:** Məktəblərin 99 faizində summativ problemi var, bunu 1-ci sinif şagirdi də bilir.

**Aysel Vəliyeva:** Bilmirəm, hansı məktəbə nə qədər kağız verilir, amma... İşlədiyim məktəbdə 4200 şagird təhsil alır. Hər sinifdə 40-a yaxın uşaq var. 5 sinfim var - 200 şagird. Azərbaycan dili və ədəbiyyat müəllimiyəm. Yarım il ərzində minimum 3-4 Ksq, Bsq olur. Hələ bunun ədəbiyyatı da var. Özümü alçaldıb şagirddən pul yığmıram. Yığanları da qətiyyən qınamıram. Qanun nə deyir, bilmirəm, amma insaf da dinin yarısıdır...

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi



# Güzəştin miqyası kifayət qədər böyükdür

## Bu, qısa müddətdə Qarabağa xarici və yerli investisiyaların cəlb edilməsinə, eyni zamanda məşğulluğun təmin olunmasına imkan yaradacaq

**Qarabağın bərpası indi Azərbaycan iqtisadiyyatından ötrü ən vacib məsələlərdən biridir. Bu baxımdan, yalnız dağılan evlərin və infrastrukturun bərpası yetərli deyil. Həmin ərazilərin ölkə iqtisadiyyatıyla bütünləşməsi və insanların işlə təmin edilməsi baxımından bölgədə biznes fəaliyyətinin də bərpasına ehtiyac var. Bunun təmini üçün təşviq mexanizmləri, güzəştlər ilk ağlagələn mexanizmlərdir. Ötən ilin sonlarında "işğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" sərəncam da imzalanmışdı.**

Bu ildən isə işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlara vergi təşviqləri verilib.

"İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 10 dekabr tarixli sərəncamı ilə işğaldan azad edilmiş ərazilərdə iqtisadi və əmək resurslarının səmərəli idarə olunması, onların emal sənayesinin və xidmət infrastrukturunun yaradılmasına yönəldilməsi məqsədilə vergi, sosial sığorta və digər güzəştlərin tətbiqi, habelə həmin ərazilərdə özəl təşəbbüslərin stimullaşdırılması, investisiya təşviqi mexanizmlərinin təkmilləşdirilməsi, istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlar üçün xammal və materialların idxalı ilə bağlı gömrük və vergi güzəştlərinin müəyyən edilməsi tapşırılıb.

Dövlət Vergi Xidmətinin əməkdaşı Anar Cabbarovun sözlərinə görə, ölkə Prezidentinin müvafiq sərəncamının icrasının təmin edilməsi məqsədilə işğaldan azad edilmiş ərazilərdə investisiya cəlbediciliyinin artırılması və sahibkarlıq mühitinin yaxşılaşdırılması üçün optimal güzəştlər və stimullaşdırıcı mexanizmlər hazırlanıb və Vergi Məcəlləsinə müvafiq dəyişikliklər edilib: "Vergi güzəştlərinin verilməsində əsas hədəf işğaldan azad olunmuş ərazilərə investisiyaların cəlbi və həmin sahəyə dövlət tərəfindən təşviqlərin verilməsidir. İşğaldan azad edilmiş ərazilər əlverişli coğrafi quruluşa və böyük istehsal potensialına malikdir. Burada həm sənayeləşmə, həm də hasilat sənayesi baxımından kifayət qədər geniş imkanlar mövcuddur. Buna görə də həmin ərazilərdə rezident kimi qeydiyyatdan keçən subyektlər digər genişhəcmli güzəştlərlə əhatə olunacaq. İşğaldan azad edilmiş ərazinin rezidentləri 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergidən azad edilib. Habelə bu azadolma ərazinin rezidentinin həmin ərazidəki fəaliyyəti ilə bağlı əldə olunan satışdankənar gəlirlərinə də şamil ediləcək.

Həmçinin işğaldan azad edilmiş ərazilərdə ƏDV ödəyicisi olan rezidentlər tərəfindən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnika, texnoloji avadanlıqlar və qurğular, habelə xammal və materialların idxalı 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində ƏDV-dən azad edilib. Bu məqsədlə ƏDV-dən azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturalarının siyahısının ayrıca təsdiq edilməsi nəzərdə tutulub".

A.Cabbarov qeyd edib ki, işğaldan azad olunmuş ərazinin rezidenti olan hüquqi şəxslərin səhmdarları və payçılarının dividend gəlirləri də 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində vergidən azad edilib: "Bu ərazilərdə iqtisadi fəaliyyətin canlandırılmasını nəzərdə tutan bir sıra digər vergi təşviqləri də təsdiq edilib. İşğaldan azad olunan ərazilərin geniş turizm potensialına malik olması nəzərə alınaraq, turizm sahəsi üzrə nəzərdə tutulan ümumi güzəştlərlə yanaşı, eyni zamanda mehmanxana xidmətlərinə görə ödənilən ƏDV-nin istehlakçılara geri qaytarılması da həyata keçiriləcək. Belə ki, bu ərazilər daxilində yerləşən mehmanxanalar (hotellər) tərəfindən göstərilən gecələmə və qalma xidmətlərinə (digər əlavə xidmətlər istisna olmaqla) görə nağdsız qaydada ödənilmiş ƏDV-nin 30 faizi, nağd qaydada ödənilmiş ƏDV-nin isə 5 faizi fiziki şəxs olan istehlakçılara geri qaytarılması nəzərdə tutulur. ƏDV-nin geri qaytarılması prosesi bu sahəyə, bizneslə yanaşı, vətəndaş marağının da artırılmasına səbəb olacaq.

Vergi azadolmaları bir sıra fəaliyyət növləri və əməliyyatlara şamil edilməyəcək. Belə fəaliyyət və əməliyyatlara maliyyə xidmətlərinin göstərilməsi, avtonəqliyyat vasitələri ilə yükdaşıma xidmətləri və dövlət büdcəsinin vəsaitləri hesabına podratçı (işğaldan azad edilmiş ərazi daxilində istehsal fəaliyyətini həyata keçirən rezident podratçılar istisna olmaqla) tərəfindən malların (işlərin və xidmətlərin) təqdim edilməsi daxildir. Bütövlükdə, Vergi Məcəlləsində edilmiş dəyişikliklərlə işğaldan azad olunmuş ərazilərdə real sektorun bütün sahələri, yəni ticarət, xidmət, istehsal, tikinti sektoru, hasilat sənayesi və digər subyektlər vergi güzəştləri ilə əhatə edilib".

**Qarabağda fəaliyyət göstərəcək sahibkarların əsas vergilərdən azad olunmasını müsbət dəyərləndirən millət vəkili Vüqar Bayramov sözügedən dəyişikliklərin kifayət qədər böyük güzəşt paketi olduğunu deyib.**

Onun sözlərinə görə, işğaldan azad olunmuş ərazilərimizə investisiya qoyacaq şirkətlər, eyni zamanda orada çalışacaq vətəndaşlarımız üçün əksər vergilərdən azadolma, eyni zamanda ƏDV-nin geri qaytarmaq prinsipində kifayət qədər yüksək faizin müəyyənləşdirilməsi, sosial haqlarla bağlı subsidiyanın verilməsi təklif olunub. Bu baxımdan güzəştin miqyası kifayət qədər böyükdür. Bu da həm investisiyanın cəlb edilməsi, həm də vətəndaşlarımızın həmin ərazilərdə çalışması üçün xüsusi bir stimul yaradacaq.

*V.Bayramov bildirib ki, bu güzəştlər bölgəyə daha çox investisiyaların cəlb edilməsinə imkan verəcək:* "Güzəştlər investisiyanın yeri və növündən asılı olmayaraq tətbiq olunacaq. Bu da xüsusən sərmayə qoyuluşları baxımından çox vacibdir. Yeni güzəştlərin tətbiq edilməsi artıq Qarabağın, Şərqi Zəngəzurun iqtisadiyyatının formalaşması və Azərbaycan iqtisadiyyatının reinteqrasiyasına xüsusi töhfə verəcək. Nəticə etibarı ilə yeni güzəştlər daha qısa müddətdə Qarabağa xarici və yerli investisiyaların cəlb edilməsinə, eyni zamanda məşğulluğun təmin olunmasına imkan yaradacaq".

**Şəymən**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



## "Traktor"un keçmiş futbolçusuna 26 il həbs cəzası verilib

**İranlı futbolçu, Təbrizin "Traktor" klubunun keçmiş müdafiəçisi Əmir Nəsr Azadani etiraz aksiyalarında iştirak etdiyi üçün həbs cəzası alıb.**

APA "Tasnim"ə istinadən xəbər verir ki, məhkəmə son qərarında edam hökmünü 26 il həbs cəzası ilə əvəzləyib. Futbolçu 3 maddə üzrə təqsirli bilinib və qanuna görə, həbs cəzalarını eyni zamanda çəkəcəyi üçün futbolçu 16 il həbsdə olacaq.

*Qeyd edək ki, 26 yaşlı futbolçu sonuncu dəfə İranın "İrancavan" klubunda çıxış edib*

## Yevlaxda bir nəfər kanalda batıb

Axtarışa dalğıclar cəlb edilib



**Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə 1 nəfərin Yuxarı Şirvan kanalının Yevlax rayonunun Xanabad kəndi ərazisindən keçən hissəsində batması barədə məlumat daxil olub.**

Nazirlikdən "Şərq"ə verilən məlunmata görə, hadisə ilə əlaqədar dərhal hadisə yerinə cəlb edilən FHN-in Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin "Aran" dalğıc-axtarış qrupu Yuxarı Şirvan kanalında batması ehtimal edilən 1983-cü il təvəllüdlü Kərimov Rəşad Rafiq oğlunun axtarışlarına başlayıblar.

Əlverişsiz hava şəraitinə baxmayaraq, vətəndaşın batdığı ehtimal edilən istiqamətlərdə axtarış-xilasetmə tədbirləri həyata keçirilir.

# Az qala hamı sürücülərə tövsiyələr verir

## Amma ötən illərin təcrübəsi göstərir ki, qarlı-buzlu yollarda ən çox əziyyət çəkən, ən çox zədə alan piyada hərəkət edənlərdir





### "Yol təsərrüfatı və kommunal xidmət əməkdaşlarından xahişim odur ki, yolları qar-buzdan təmizləyərkən səkiləri unutmasınlar, piyada keçidlərinə xüsusi diqqət yetirsinlər"

**Gecə saatlarından etibarən Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) kommunal strukturları və aidiyyəti qurumlar küçə və prospektlərin qar və buzdan təmizlənməsini davam etdirib və xüsusi təyinatlı texnika vasitəsilə yollara duz və reagentlərin səpilməsi işləri aparılıb. BŞİH-dən bildirilib ki, yollarla yanaşı vətəndaşların daha çox istifadə etdikləri yerlər - metro stansiyalarının qarşısı, avtobus dayanacaqları, ictimai-iaşə, təhsil, səhiyyə və digər müəssisələrin ətrafı da təmizlənir. Təmizləmə işlərində həmin müəssisələrin əməkdaşları və ictimai-iaşə obyektlərində çalışanlar da yaxından iştirak edirlər. İşlər gün ərzində davam etdirilir.**

Ölkə üzrə müşahidə olunan qarlı və əlverişsiz hava şəraiti Azərbaycanın Qərb bölgəsinin dağlıq rayonlarında, əsasən də ucqar kəndlərə gedən avtomobil yollarında qismən çətinliklər yaradıb və bir neçə avtomobil qəzası baş verib.

Yanvarın 8-dən başlayaraq yağan qar gecə saatlarında daha da intensivləşib. Həmçinin temperatur aşağı düşərək avtomobil yollarında buzlanma olub.

Gədəbəy, Daşkəsən, Göygöl, Şəmkir və Tovuz rayonlarının ucqar kəndlərində avtomobil yollarının buz bağlaması və qarlı olması səbəbindən nəqliyyat vasitələrinin hərəkətində qismən çətinlik yaranıb.

Bakı-Qazax magistral yolunun bölgədən keçən hissəsində isə əsasən gecə və səhər saatlarında avtomobillərin hərəkətində çətinliklər olub.

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Gəncə regional qrupunun baş inspektoru polis kapitanı Eşqin Qasımov "Report"un Qərb bürosunun sorğusuna cavab olaraq bildirib ki, qarlı hava şəraiti səbəbindən bir neçə yol-nəqliyyat hadisəsi baş verib.

Onun sözlərinə görə, yol qəzaları səbəbindən ciddi xəsarət alan olmasa da, nəqliyyat vasitələrinə zərər dəyib.

DİN rəsmisi yolların buzlu və qarlı olmasını nəzərə alaraq sürücülərdən və həmçinin piyadalardan yol-hərəkət qaydalarına ciddi əməl edilməsini xahiş edib: "Avtomobillərin şinləri qış mövsümünə uyğun olmadığı halda yola çıxırılmaması tövsiyə edilir. Ara məsafələrin qorunması, ötmə əməllərinə, sürət həddinə diqqət edilməsi vacibdir. Hələ ki, bölgədə 3 yol-nəqliyyat hadisəsi qeydə alınıb. Hadisələr zamanı xəsarət alan isə yoxdur. Hava şəraiti səbəbindən yollarda yaranmış fəsadları nəzərə alaraq mümkün qədər nəqliyyat vasitələrindən az istifadə edilməsi tövsiyə olunur".

E.Qasımov həmçinin bildirib ki, istər magistral yolda, istərsə də şəhər və rayon yollarında Dövlət Yol Polisi əməkdaşları gücləndirilmiş iş rejimində fəaliyyət göstərir və hər hansısa avtomobil qəzasının baş verməməsi üçün mümkün olan tədbirlər görülür.

Qeyd edək ki, hazırda Qərb bölgəsində qeyri-sabit hava şəraiti müşahidə olunur. Aidiyyəti qurumlar tərəfindən yollara qum səpilir və nəqliyyat vasitələrinin hərəkətinin tam bərpası üçün işlər davam etdirilir.

Nəqliyyat eksperti Ərşad Hüseynovun "Şərq"ə açıqlamasına görə,

qarlı-buzlu yollarda təhlükəsiz hərəkət çox önəmlidir. Az qala hamı, dövlət qurumları da, ayrı-ayrı şəxslər də bununla bağlı sürücülərə tövsiyələr verirlər. Amma ötən illərin təcrübəsi göstərir ki, qarlı-buzlu yollarda ən çox əziyyət çəkən, ən çox travma alan piyada hərəkət edənlərdir: "Ona görə də ilk məsləhətim onlaradır. Piyada hərəkət edənlər bunları nəzərə alsalar, yaxşı olar.

Səkilər bəzən yolun hərəkət hissəsindən tez donur. Sakinlər buzlu səkilərdə diqqətli olsunlar. Xüsusən də küçələrimizin əksəriyyətində səkilər sürüşkən döşəmə materiallarındandır. Belə yerlərdə çox ehtiyatlı olun, çünki buz olmasa da, yerdə azca qar olması çox ciddi sürüşmə effekti yaradır.

Piyada keçidlərini və ümumiyyətlə, yolun hərəkət hissəsini çox ehtiyatla keçin, çünki avtomobillər həmişəki kimi tormozlanmır. Çalışın yolun hərəkət hissəsində olmayasınız. Ən xəfif sürətlə və kifayət qədər aralıda olan avtomobil də təhlükəli ola bilər. Vətəndaşlar altı sürüşməyən ayaqqabılardan istifadə etməyə çalışsın.

Xüsusi zərurət yoxdursa, yollara çıxmayın. Xüsusən yaşlı insanların küçələrə çıxmamasına çalışın".

Ə.Hüseynovun sözlərinə görə, qarlı-buzlu küçələrimizdə piyada hərəkət edərkən yıxılaraq ciddi travma (xüsusən qol-qıça sınıqları) alan insanların sayı yol-nəqliyyat hadisələrində travma alanların sayından bəzən 5 dəfə çox olur: "Sürücülərə məsləhət edirəm ki, yolda piyada görən kimi ehtiyat tədbiri görün, dayanmağa hazır olun, çünki qarda-buzda piyada da sürətlə yeriyə bilmir, hətta anidən yıxıla da bilər. Yol təsərrüfatı və kommunal xidmət əməkdaşlarından isə xahişim odur ki, yolları qar-buzdan təmizləyərkən səkiləri unutmasınlar, piyada keçidlərinə xüsusi diqqət yetirsinlər. Əvvəlki illərdə rast gəldiyimiz, qarın hərəkət hissəsindən səkiyə atılması kimi təcrübə çox yanlış və təhlükəlidir. Bunları nəzərə almağı rica edirəm".

**Şəymən Bayramova**

# Səhlənkarlıq baş alıb gedir



## Dəm qazından boğulma halı Azərbaycanda olduğu qədər başqa heç yerdə yoxdur

**Havalar soyuduqca insanların təbii qazdan istifadəsinə tələbatı artır. Ancaq bu "tələbat" bəzən özü ilə ölüm də gətirir. Hazırda ölkədə narahatlıq doğuran hadisələrdən biri də dəm qazından zəhərlənmələrin və ölüm hadisələrinin sayının çoxalmasıdır. İnsanlar əsasən qapalı məkanlarda - hamam otaqlarında, qapalı qarajlarda, mühərriki söndürülməyən avtomobillərdə və iri magistral yolların kənarlarında uzun müddət dayandıqda zəhərlənir.**

Növbəti günlərdə gözlənilən hava şəraiti ilə əlaqədar Fövqəladə Hallar Nazirliyi əhaliyə müraciət edərək, müvafiq təhlükəsizlik qaydalarına riayət etməyə çağırıb:

"Belə ki, soyuq və yağıntılı hava şəraiti qaz və elektrik qızdırıcı cihazlarından istifadənin xeyli artmasına səbəb olur. Bu zaman elektrik şəbəkəsinin həddindən artıq yüklənməsi, habelə nasaz, qeyri-standart və ya kustar üsulla hazırlanmış qaz və elektrik qızdırıcı cihazlarından istifadə, ehtiyatsızlıq yanğınla nəticələnə, həmçinin dəm qazı təhlükəsi yarada bilər. Odur ki, nasaz, qeyri-standart və ya kustar üsulla hazırlanmış qızdırıcı cihazlardan istifadə edilməməli, elektrik şəbəkəsi həddindən artıq yüklənməməli, işlək vəziyyətdə olan qızdırıcı cihazlar nəzarətsiz qoyulmamalı, xüsusilə bunlar uşaqlara həvalə edilməməli, qızdırıcı cihazların bilavasitə yaxınlığında yanar materiallar və asan alışan mayelər saxlamamalı, cihazlardan zavod istehsalçılarının təlimatlarına (tövsiyələrinə) uyğun istifadə edilməlidir".

Mütəxəssislərin fikrincə, dəm qazından zəhərlənmənin insan üçün çox ciddi fəsadları var və bu cür zəhərlənmələrin ən təhlükəli tərəfi insanın dəm qazının mövcudluğunu hiss etməməsi və asanlıqla huşunu itirməsidir.

Mütəxəssislərin fikrincə, qapalı mühitdə qaz yandırılarkən mütləq nəfəsliklər açıq olmalıdır. Eyni zamanda təhlükəsizlik baxımından dəm qazı yarandıqda onu işarə verən müasir qaz cihazlarından istifadəni məsləhət görürlər. Qeyd edək ki, dəm qazı ilə yüngül zəhərlənmə zamanı zərərçəkəndə başgicəllənmə, baş ağrısı, quru öskürək, ürəkbulanma, qusma kimi əlamətlər meydana çıxır. Daha ağır zəhərlənmə isə qıcolmalar, huşun uzun müddət itirilməsi, beyin ödemi, ürəyin zədələnməsi baş verir. Yadda saxlamaq lazımdır ki, kiçikyaşlı uşaqlar, hətta az miqdarda dəm qazından həyatlarını itirə bilərlər. Dəm qazının orqanizmə öldürücü təsiri bununla izah olunur ki, o, qanda tez bir zamanda hemoqlobinlə birləşir. Bu zaman toxumaların hüceyrələrinə oksigen daşınmır və oksigen qıtlığı nəticəsində insan huşunu itirir. Həmin vaxt bədəndə süstlük əmələ gəlir, nitq tutulur. Dəm qazı ilə zəhərlənmə zamanı ilk tibbi yardım önəmlidir. Zəhərlənmə zamanı həyəcanlanmadan ilkin tədbirlər görmək lazımdır. İlk olaraq, zərərçəkəni dərhal açıq havaya çıxarmaq, əynindəki paltarın yaxasını, kəmərini və s. açmaq, ona yarıoturaq vəziyyət vermək lazımdır. Bundan başqa, zərərçəkənin alnına, sinəsinə soyuq kompres qoymaq, əgər zərərçəkən nəfəs almırsa və ürəyi dayanıbsa, masaj etmək və süni tənəffüs vermək lazımdır.

***Ekspertin fikrincə, qaz sızması və dəm qazını aşkarlayan qaz siqnalı aparatları məcburi olmalıdır***

**Kommunal xidmətlər üzrə mütəxəssis Nüsrət Qasımov isə "Şərq"ə açıqlamasında deyib ki, dəm qazı ilə əlaqədar təhlükə mənbələrindən biri binalardakı bacaların tutulması və vaxtında təmizlənməməsi, həmçinin məişət qızdırıcı qurğuların təhlükəsizliyi və nasazlığı ilə bağlıdır:** "Təbii qaz yüksək təhlükə mənbəyidi, ona görə də bununla bağlı qayda-qanunlar hazırlanıb. Mötəbər qanunlarımız var, bu standartlara əməl edilsə, heç bir problem ola bilməz. Ancaq səhlənkarlıq baş alıb gedir. Dəm qazından boğulma halı Azərbaycanda olduğu qədər başqa heç yerdə yoxdur. Daimi maarifləndirmə işləri aparılmalıdır. Qaz boruları ildə iki dəfə təmizlənməlidir, bunu hamı deyir, amma kim edəcək bilinmir. Sovet vaxtında bacalar ildə 4 dəfə, xüsusilə qış mövsümündə - noyabr ayında bir dəfə təmizlənirdi. İndi onların hamısı yaddan çıxıb. Qaz kəmərlərinin başına oyun açıblar, özbaşlarına yerlərini dəyişdiriblər".

**N.Qasımovun sözlərinə görə, dəm qazından zəhərlənmə hallarının 90 faizindən çoxu hamam otaqlarında qeydə alınır. Vanna otaqlarında tüstü bacaları ildə bir dəfə təmizlənməlidir, onlar nəzarətdə saxlanılmalıdır. Qeyri-standart cihazlar quraşdırmaq qətiyyən olmaz:** "Məsələn, dəmirdən düzəldilən sobalar, "radiator" deyilən çuqun cihazlar standartlara uyğun deyil. İlk növbədə insanlar arasında maarifləndirmə işləri aparılmalıdır, çünki hər bir abonentə ayrı-ayrılıqda nəzarət etmək olmur. Uşaqları, xəstələri, qocaları təkbaşına nəzarətsiz qoymaq olmaz. Köhnə su qızdırıcıları kimi istifadə olunan "kalonka"lar, "pyatiminutka"lar, "ceyran peçləri" təhlükə yaradır və onlardan istifadə olunmamalıdır. Bu, vaxtilə cihaz çatışmazlığından su borularına sözügedən təhlükəli dəmir "peç"lər, cihazlar quraşdırılırdı. Lakin hazırda ən təhlükəsizi və məsləhətlisi kombi sistemidir. Dəm qazından zəhərlənmənin qarşısını almaq üçün birinci növbədə tüstü bacaları ildə iki dəfə təmizlənməlidir. Bu proses mövsümqabağı və mövsümün bitdiyi vaxtlarda həyata keçirilməlidir. Eyni zamanda su qızdırıcıları da ildə iki dəfə - altı aydan bir təmizlənməlidir. Xüsusilə əhali arasında maarifləndirmə aparılmalıdır ki, insanlar "Azəriqaz" İstehsalat Birliyinin nümayəndəsi, mütəxəssisi olmadan qaz xətlərinə qaz cihazlarını quraşdırmasınlar".

Ekspertin fikrincə, qaz sızması və dəm qazını aşkarlayan qaz siqnalı aparatları məcburi olmalıdır: "Dəm qazı detektorlarını heç kəs quraşdırmır. Bu ağıllı cihazlar indiki dövrdə geniş təbliğ olunmalıdır və hər bir evə bu aparatları quraşdırmaq mütləqdir. Bu, məcburi olmalıdır, amma heç kim bu işə məhəl qoymur. Evlərdə və mənzillərdə bununla bağlı təhlükəsizliyə ilk növbədə ev sahibi özü və əlaqədar qurumlar məsuliyyət daşımalıdı, qazdan təhlükəsiz istifadə qaydalarını pozmamalıdı. Aidiyyəti qurum olaraq bu məsələ ilə bağlı əhalinin təhlükəsizliyinə Fövqəladə Hallar Nazirliyi nəzarət etməlidir". N.Qasımov deyib ki, bəzən qazın tərkibinə zəhərli maddələrin qatılması və qazın zəhərli olması ilə bağlı fikirlər səslənir. Halbuki bütün dünyada istehsal olunan ən təhlükəsiz qaz Azərbaycan qazıdır.

**Şəymən**



## "JEK"lər ləğv olunsa vəziyyət çətinləşər

### Əslinə qalsa, mənzilləri sakinlərin özləri idarə etməlidir

**"Sovet dövründən qalan mənzil istismar sahələrindən söhbət gedirsə, onlara zibil daşınması üçün il ərzində 20-30 manat pul verilir"**

**Bunu "Şərq"ə açıqlamasında Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri, hüquq müdafiəçisi Sahib Məmmədov "JEK"lər aldıqları pul müqabilində nə edirlər" sualını cavablandırarkən deyib.**

O qeyd edib ki, əslinə qalsa, mənzilləri sakinlərin özləri idarə etməlidir: "Kim istəsə, Mənzil Mülkiyyətçiləri Müştərək Cəmiyyətini yaradıb öz binasını idarə edə bilər. O zaman "JEK"lərə bir qəpik belə verilməyəcək.

Amma belə olduğu təqdirdə xərcləri 15-20 dəfə çoxalacaq. Ona görə də heç kəs buna getmir. Ümumiyyətlə, mənzillər şəxsi mülkiyyətdir. Mənzil məcəlləsinə görə həmin binanın ümumi yerlərinin də xərclərini mülkiyyətçilər çəkməlidir. "JEK"lər həyətləri süpürür, zibilləri atır və bunun müqabilində ildə üç otaqlı bir mənzildən 20-30 manat pul alırlar. Sabah mənzil istismar sahələri ləğv edilsə, binalar başlı-başına qalacaq. Bu zaman isə mülkiyyətçilər lift almalı, binanın damını və zirzəmisini özləri təmir etməli olacaqlar. Qanunla da bu belədir, bina özəlləşdirilib, amma sakinlər onu idarə etmir. Sonra isə "JEK"lərdən şikayətlənirlər. Heç kəs onlara qanunla özlərinin cəmiyyətini yaratmağı qadağan etmir. Düzdür, bu sahədə islahat aparmaq lazımdır. Lakin mənzil istismar sahələri ləğv edilməlidir. Çünki dövlət ona dotasiya verir və problemlər qismən də olsa həll edilir".

**Nihat Müzəffər**

"Tovuz" Xeyriyyə Cəmiyyəti Ağsaqqallar Şurasının və İdarə Heyətinin üzvləri professor Məhərrəm Qasımlıya qardaşı

**Xanoğlan Qasımovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət etsin!**

"Tovuz" Xeyriyyə Cəmiyyəti Ağsaqqallar Şurasının və İdarə Heyətinin üzvləri Azad Müseyibova qardaşı

**İbrahim Müseyibovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət etsin!**



## Azərbaycanda ilk dəfə

### Vəhşi heyvanlar helikopterlə peyvənd olunacaq

**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) aidiyyəti orqanlarla birgə ətyeyən vəhşi heyvanlar arasında quduzluq xəstəliyinə qarşı peyvəndləmə işləri aparacaq.**

Bu barədə "Şərq"ə AQTA-dan məlumat verilib.

Qeyd olunub ki, peyvəndləmə bu ilin yanvar ayında ilk dəfə helikopterlə Şamaxı, Ağsu, İsmayıllı, Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayonları ərazisində kəndətrafı meşəlik sahələrdə aldadıcı yem vasitəsilə aparılacaq. Aldadıcı yemi paylayacaq marşrut müəyyənləşdirilərək müvafiq xəritə tərtib edilib. Marşrut üzrə relyef quruluşu nəzərə alınmaqla təqribən 600 km məsafədə müvafiq normalara uyğun aldadıcı yem briketinin paylanması nəzərdə tutulub.

Bununla bağlı həmin briketlərə toxunulmaması və digər zəruri məlumatlarla bağlı sakinlər arasında maarifləndirmə-təbliğat tədbirlərinin həyata keçirilməsi məqsədilə posterlər və bukletlər hazırlanıb: "Son illər ölkə ərazisində keçirilən monitorinqlər zamanı ətyeyən vəhşi heyvanlar və sahibsiz itlər arasında quduzluq xəstəliyi aşkar olunub. Xəstəliyin baş verdiyi ərazilərdə aparılan epidemioloji araşdırmalarda həmin heyvanların insanlara və ev heyvanlarına xəsarət yetirdiyi, nəticədə insanların da xəstəliyə yoluxması müəyyənləşdirilib. Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının ekspertləri tərəfindən ölkəmizin baytarlıq sisteminin "PVS aləti" vasitəsilə beş ballıq meyarla qiymətləndirilməsi missiyası dövründə regionda quduzluq xəstəliyinin epizootoloji risk səviyyəsinin yüksək olduğu qənaətinə gəlinib və müasir dünya təcrübəsinə uyğun olaraq yüksək riskli ərazilərdə quduzluq xəstəliyinin yayılmasında əsas rol oynayan ətyeyən vəhşi heyvanlar və sahibsiz itlər arasında aldadıcı yem vasitəsilə peyvəndləmənin aparılmasının vacibliyi bildirilib".

**Aygün**

# Belə şəraitdə əlbəttə, taksi sürücüləri qiyməti qaldıracaq

## Qarlı, şaxtalı havada buna təəccüb edilməməlidir

**Bakıda qarlı hava şəraiti ilə əlaqədar taksilərdə gediş haqqı kəskin artıb. Bakupost.az -ın məlumatına görə, qarın yağmasından istifadə edən işbazlar qiymətləri qaldırıblar. Masazır, Xırdalan kimi ərazilərə qeyri-qanuni işləyən "manatlıq" taksilər adamın birini 5 manatdan aparırlar. Eyni zamanda özəl taksi şirkətlərində də bahalaşma müşahidə olunur. Qeyd edək ki, fərdi qaydada fəaliyyət göstərən taksi qiymətlərinin də kəskin artdığı bildirilir. Hətta 3-5 manatlıq məsafə üçün qiymətin 20-30 manat olduğu bildirilir.**




***"Bunun qarşısını Bakı Nəqliyyat Agentliyi almağa çalışmalıdır. Müntəzəm marşrut xətlərinə buraxılan avtobusların sayı artırılmalıdır, ictimai nəqliyyatın fasiləsiz işləməsi təmin edilməlidir"***

Qeyri-sabit hava şəraitinin yanvarın 12-dək davam edəcəyi nəzərə alınarsa, taksi sürücüləri daha bir neçə gün müştərilərə "qiymət oxuyacaq". Nəqliyyat sektoruna cavabdeh olanlar bəs hansı tədbirləri görəcək? Qeyd edək ki, dünən səhər saatlarından etibarən paytaxtda ictimai nəqliyyatın hərəkətində intensivlik pozulub. Səhər saatlarında işə gedənlər avtobusları dayanacaqlarda uzun müddət gözləməli olub. Sürücülər gecikmələrin əsas səbəbini qarın yağması nəticəsində yollarda normal hərəkətin qeyri-mümkün olmasıyla izah edirlər. Sürücülərin ehtiyatlılığı əlbəttə anlaşılandır. Söhbət təhlükəsizlikdən gedirsə, sürət azaldılmalı, keçilməz yollarla hərəkət edilməməlidir. Zatən, adi, hava şəraiti normal olan vaxtlarda da artıq uzun müddətdir tıxaclar yaşanır, ictimai nəqliyyatın hərəkətində gecikmələr yaranır, intervallar uzandıqca-uzanır. Adi vaxtlarda bu problemlər yaşanırsa, qarlı havadan danışmağa dəyməz. Amma hər sahəyə cavabdeh qurum var və qarlı havalarda sərnişinlərin, ümumilikdə əhalinin rahat hərəkət etməsini mümkün qədər təmin etmək də konkret orqanların vəzifə borcudur.

Bildirilir ki, qar yağışı müşahidə edilən respublikanın bütün yollarında DYP əməkdaşlarının müşayiəti və təhlükəsizlik tədbirlərini təmin etməsi ilə paralel olaraq aidiyyəti qurumlar tərəfindən yolların qardan təmizlənməsi və qumlanması işi həyata keçirilir. Paytaxt ərazisində və digər bölgələrdə bu işə çoxsaylı texnika və şəxsi heyət cəlb edilib. Yolların açılması istiqamətində işlər fasiləsiz davam etdirilir. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi də təmizlənmiş magistral yollar barədə mütəmadi məlumat yayır. Müşahidə edilən vəziyyət isə qənaətbəxş sayılmaz, bir halda ki, insanlar evdən işə gecikir, işdən də evə gedib çata bilmir.

**Nəqliyyat məsələləri üzrə ekspert İlqar Hüseynli "Şərq"ə açıqlamasında bildirdi ki, qarlı, şaxtalı havada taksi sürücülərinin, taksi şirkətlərinin qiymətləri qaldırıcağına təəccüb edilməməlidir:**

- Bu, tamamilə gözləniləndir. Və təbiidir. İctimai nəqliyyat yoxdursa, insanlar taksi xidmətindən istifadə etməyə məcburdur. Taksi sürücüləri də haqlı olaraq qiymətləri qaldırır. Təhlükəli hava şəraitində avtomobil idarə etmək asan deyil. Normal iqlim şəraitində taksi sürücüləri "ças-pik" vaxtı qiymətləri qaldırırlar, bu əsasla ki tıxacda vaxt itkisinə gedilir, benzin sərfi artır. Normal şəraitdə 1 saat müddətində 2 sərnişinə xidmət göstərə bilən taksi tıxaclar zamanı yalnız 1 sərnişinə xidmət göstərə bilir, yalnız bir sifarişə yollana bilir. Axşam saatlarında işdən evə qayıdanlar yenə dayanacaqlarda qalacaq. Müntəzəm marşrut avtobusları xətdə olmayacaq. Sərnişinləri daşıya biləcək ancaq taksilər qalacaq. Belə şəraitdə əlbəttə, taksi sürücüləri, taksi şirkətləri qiyməti qaldıracaq. Bu, labüddür. Bunun qarşısını Bakı Nəqliyyat Agentliyi almağa çalışmalıdır. Müntəzəm marşrut xətlərinə buraxılan avtobusların sayı artırılmalıdır, ictimai nəqliyyatın fasiləsiz işləməsi təmin edilməlidir. Bunun üçün də gərək yollar təmizlənmiş olsun, ictimai nəqliyyatın, avtomobillərin sərbəst hərəkəti təmin edilsin. Bu, yoxdursa, avtobuslar xəttə çıxmayacaq, xətdən yayınacaqlar. Həm əsaslı, həm əsassız. Nəzarət gücü olmalıdır, tələb edilməlidir ki, müntəzəm marşrut avtobusları təyin olunmuş qrafiklə hərəkət etsin. Yoxsa, yolda qalan sərnişin məcburdur taksilərdən istifadə etsin.

**Məlahət Rzayeva**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330
Tirajı: 1550 Sifariş: 99



## Canavarlar çoban itini parçaladı

Yalnız başı və sümükləri qaldı



**Türkiyənin Ərzincan bölgəsində Mert Yılmaz adlı yutuber qoyun sürüsünü müşayiət edən çoban itinin canavarlar tərəfindən parçalandığını izləyiciləri ilə paylaşıb.**

"Şərq" türk mediasına ictinadən xəbər verir ki, Yılmaz qohumunun qoyun sürüsünün canavar hücumuna məruz qaldığını, çoban itinin canavarları sürüdən qovduğunu, lakin sonra özünün canavarlara yem olduğunu bildirib.

Yılmaz hadisəni videosunda belə izah edib: "6 canavar sürüyə hücum etdi. Sürüdəki it onları sürüyə buraxmadı. İt və çoban canavarları sürüdən qovur, canavarlar qoyunları tuta bilmirlər. Canavar tutan itə başqa canavarlar hücum edir. Daha sonra canavarlar sürü itini parçalayanda yalnız başı və sümükləri qalır. Həm çobanlıq edən, həm də çöldəki canlıları dron və kamera ilə çəkən Mert Yılmaz həmin anları sosial media hesabında lentə alıb. Canavarlar itsiz sürüyə pusqu qurarkən həmin anlar dron kamerası tərəfindən lentə alınıb.

**Turan**

## Londonda "Şalvarsız metro" günü



**İngiltərənin paytaxtı Londonda "Şalvarsız metro" Günü keçirilib.**

Bakupost.az xəbər verir ki, paytaxt Londonda hər il keçirilən "Şalvarsız metro" Günü tədbiri pandemiya səbəbindən iki ildir ki, baş tutmurdu. Tədbir 8 yanvarda keçirilib. İnsanlar şalvar geyinmədən metroya miniblər. İlk dəfə Nyu-Yorkda başlayan tədbir dünyanın onlarla şəhərini əhatə edib.

## Bahalı çantasını nümayiş etdirdi, tənqid olundu



**Türkiyəli model-aparıcı Ebru Şallının həyat yoldaşı Uğur Akkuşun verdiyi bahalı hədiyyəni nümayiş etdirməyə çalışması ona baha başa gəlib.**

**Axşam.az xəbər verir ki, model sosial media hesabında son çəkdirdiyi fotonu paylaşıb. Şəkildə bir müddətdir aralarında yaşadıqları gərginlik səbəbindən həyat yoldaşının ona hədiyyə etdiyi bahalı çantanın yer alması izləyicilər tərəfindən birmənalı qarşılanmayıb. Ebrunun ünvanına "Ərim bahalı çanta almışdır", "Çantamla mən yemək yeyirik" kimi şərhlər yazılıb.**

## Bred Pitt karyerasını bitirir

### Hollivud ulduzu kinodan tamamilə uzaqlaşmaq niyyətindədir



**Hollivud ulduzu Bred Pitt kino karyerasını bitirməyi planlaşdırır.**

**Axşam.az xəbər verir ki, aktyor prodüser şirkəti "Plan B"nin səhmlərinin əksəriyyətini satdıqdan sonra bu addımı atmaq qərarı alıb.**

**"Page Six"in məlumatına görə, Pitt Fransaya mühacirət etmək və kinodan tamamilə uzaqlaşmaq niyyətindədir. Bildirilib ki, o, daha sakit həyat yaşamaq istəyir. Ehtimal olunur ki, aktyor filmlərə çəkilməyə davam etsə də, kino biznesindən uzaq qalacaq.**

***Qeyd edək ki, bir müddət əvvəl Pittin keçmiş həyat yoldaşı Cennifer Eniston sözügedən şirkətə görə onu məhkəməyə verərək 100 milyon dollar tələb edib. Onu da xatırladaq ki, bundan əvvəl Pitti keçmiş həyat yoldaşı Ancelina Coli də fransız şərab zavodu "Chateau Miraval"a görə məhkəməyə verərək 250 milyon dollar istəyirdi.***

## Ronaldo Səudiyyə Ərəbistanında 17 otaqlı kral mənzildə qalır

### Futbolçu ailəsi ilə birgə 99 mərtəbəli "Four Seasons Hotel Riyadh" hotelində məskunlaşıb



**Dünya şöhrətli futbolçu Kriştiano Ronaldo "Əl-Nəsr" klubu ilə 2 illik müqavilə imzaladıqdan sonra sevgilisi Corcina Rodriges və övladları ilə birgə Səudiyyə Ərəbistanına köçüb.**

**Axşam.az xəbər verir ki, futbolçu ailəsi ilə birgə 99 mərtəbəli "Four Seasons Hotel Riyadh" hotelində məskunlaşıb. Onlar üçün iki mərtəbəni tutan və 17 otaqdan ibarət olan kral mənzillər ayrılıb. Ronaldonun daha uyğun məkan tapana qədər bir otağın kirayəsi ayda 302 min dollara başa gələn hoteldə qalacağı bildirilib.**

***Qeyd edək ki, ölkədə mövcud İslam qanunları rəsmi evli olmayan cütlüklərin eyni dam altında yaşamasını qadağan etsə də, bu, Ronaldo ilə Corcinaya aid edilməyəcək. Bundan başqa, Corcinanın Səudiyyə Ərəbistanı vizası alması üçün iki yolu var. Birincisi, "Əl-Nəsr" onunla bir növ əməkdaşlıq etməlidir ki, bu halda o, işgüzar viza ala bilsin. İkinci, ona 90 günlük turist vizasının verilməsi.***





# Ağacdan ev tikdi, həyatını dəyişdi

### İndi o, buranı icarəyə verərək ildə 30 min dollar qazanır





**Uill Sazerlendin mülkündə bir ağac evi var. Tikinti təxminən altı ay çəkib. Bu fikir ilk dəfə ağlına gələndə bunu heç vaxt edə bilməyəcəyini, boş bir yuxu olduğunu düşünüb.**

İndi o, buranı icarəyə verərək ildə 30 min dollar qazanır və qonaqlarının burada xatirələr yaşamasını izləyir.

Uill Sazerlend "Business Insider"ə deyib: "Mən ilk dəfə torpağı gəzəndə qayalıqda iki ağacın olduğunu gördüm və orada bir ağac evi tikmək istədim.

Evi özüm tikdim və təxminən 6 ay yarım çəkdi. Dörd böyük otaq daxil olmaqla, hər taxta və döşəməni özüm inşaa etdim. Mən ev tikən bir dostumdan sidr ağac kökləri aldım. Evimdə taxta-şalban zavodu da var, orada çöl üzlüklər üçün lazım olan materialı istehsal etmişəm".

Həyat yoldaşı da ona ağac evi tikməyə kömək edib.

Sazerlend arvadı Sabrinaya Airbnbdə kirayə vermək üçün ağac ev tikmək istədiyini deyəndə, o, bu cavabı alıb: "Mən də varam".

Virciniyada mütəxəssis kimi çalışan Sabrina Sazerlend hər axşam evə qayıdanda dəstəyini əsirgəmirdi; O, həyat yoldaşına döşəmə örtüyü, taxta kəsmə kimi bəzi detallarda köməklik edirdi.

Sazerlend tikdiyi ağac evi haqqında bunları da əlavə edib: "Ağac evində uşaqlar üçün iki mərtəbəli çarpayı və iki nəfərlik çarpayı var. Axar su yoxdur, amma əlləri yumaq və dişləri fırçalamaq üçün böyük su çənim var. Evdə həmçinin soba, hava təmizləyici və kondisioner var. Elektrik qızdırıcısı da var. Ön tərəfdə bir az dik, arxada isə təcili çıxış olan pilləkən tikmişəm. Qaya kənarında oturduğu üçün ağac evinin önü təqribəndir. Yerdən 5,5 metr, arxası isə təxminən 4 metrdir".

Ağac evinin bir gecəlik qiyməti 160-250 dollar arasında dəyişir.

Uill Sazerlend yalnız bir il ərzində əməyinin bəhrəsini almağa başladı. Ağac evi aylar əvvəldən rezervasiya edir. Sazerlend ağac evi sayəsində işindən çıxmaq üçün kifayət qədər pul qazanmağa başlayıb və indi o, başqa layihələrə ayırmaq üçün daha çox vaxtının olduğunu deyir.

Evdə işləyərək qazandığım gəlir dostlarım və ailəmlə daha keyfiyyətli vaxt keçirməyə imkan verir.

Sazerlend qonaqlarının yaratdığı ağac evində əyləndiyini görməkdən xoşbəxt olduğunu deyir və belə davam edir: "İndi işim insanları qonaq etmək olduğu üçün təbii ki, gün ərzində bəzi vərdişlərimi dəyişməli oldum. Ağac evinin eyvanında oxumağa çalışan insanlara görə mişardan istifadə edə bilmirəm və ya mişar dəyirmanımı işə sala bilmirəm. Qonaqların getdiyini görəndə dərhal ot biçirəm. Evdən işləyərək qazandığım gəlir mənə dostlarım və ailəmlə daha keyfiyyətli vaxt keçirməyə imkan verir".

**Turan**



# Şahzadə Harri sükutu pozdu

### "Anamın ölümüylə bağlı açıqlanmayan çox şey var"

**Kral ailəsi üzvlüyündən imtina edərək ABŞ-də müstəqil həyat yaşamağı seçən Şahzadə Harri və həyat yoldaşı şahzadə Megan Markl barələrində çəkilmiş sənədli filmdə şahzadə Diana ilə bağlı açıqlamalar da yer alıb. Şahzadə Harri sənədli filmdə müsahibəsi zamanı anası - şahzadə Diananın ölümüylə bağlı hələ də açıqlanmayan bir çox məsələlər olduğunu deyib. Şahzadənin bu açıqlaması ciddi mübahisələrə və müzakirələrə yol açıb.**

Şahzadə Diana 1997-ci il avqustun 31-də Parisin "pont d.Alma" tunelində avtomobilin qəzaya uğraması nəticəsində həyatını itirib. Şahzadə 36 yaşındaydı. "Xalqın şahzadəsi" adını qazanmış Diananın ölümü nəinki britaniyalıları, dünyanın əksər ölkələrində ən sadə insanları yasa boğdu. Şahzadənin ölümündən illər keçməsinə baxmayaraq bu müəmmalı ölüm zaman-zaman yenə gündəmə gəlir, məlum avtoqəzadakı müəmmaların üzərindən sirr pərdəsi isə heç cür ortadan qalxmır. Şahzadə Harri də verdiyi müsahibədə anasının ölümüylə bağlı hələ də beynində sual işarələrinin qaldığını etiraf edib. Şahzadə Diana vəfat edərkən Harri 12 yaşındaydı.

"Spare" adlı kitabının işıq üzü görməsindən sonra şahzadə Harri televiziya kanallarından birinə verdiyi müsahibəsində diqqət çəkən açıqlamalarla çıxış edib. Şahzadə "anamın ölümüylə bağlı açıqlanmayan çox şey var. Lakin buna rəğmən yeni bir istintaq aparılmasna lüzum görmürəm", - deyib. Şahzadə deyib ki, hadisənin baş verdiyini əks etdirən fotolara dəfələrlə baxıb. Diana can verərkən ona yardım etmək əvəzinə paparasitlərin avtomobilə yaxınlaşıb foto çəkməyə çalışdıqlarını da yaxşı xatırlayır. Onlar Diananın ölümündən təsirlənmirdilər, cəld işlərini başa vurmağa tələsirdilər: Hər kəs özünü Diananın ölümündən kədərlənirmiş kimi göstərirdi. Lakin onun ən çox sevdiyi 2 nəfər o anda heç bir insani duyğu sərgiləmədi", - deyən şahzadə Harri anasının vəfatı ilə əlaqədar yalnız 1 dəfə - cənazə mərasimində ağladığını söyləyib. "Anamın öldüyü gecə harada olduğunu və nə etdiyin hər kəs bilir", - deyən şahzadə Harri öz həyatı və həyat yoldaşı Megan Marklın həyatı üçün də qorxu hissi keçirdiyini bildirib: "Anamın ölümünü yadıma salanda öz həyatımız üçün dəhşətli qorxu hissi keçirirəm".

**Məlahət Rzayeva**

## Ana balasını qəbul etmədi

"Nöqtə" adlı quzuya butulka ilə yem verir



**Kayserinin Yeşilhisar rayonunda 40 ildir heyvandarlıqla məşğul olan Ramazan Karaca (60) anası qəbul etmədiyinə görə "Nöqtə" adlı quzuya butulka ilə yem verir.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, 40 ildir maldarlıqla dolanışığını təmin edən Ramazan Karacanın qoyunlarından biri 15 gün əvvəl üçəm dünyaya gətirib. Quzulardan biri ölü doğulub, digərlərinə isə ana qoyun yem verməkdən imtina edib. Bundan sonra Ramazan onu butulka ilə yedizdirməyə başlayıb. Körpə kimi "Nöqtə"yə qulluq edən Karaca onun heç yanından ayrılmır.

1983-cü ildən heyvandarlıqla məşğul olduğunu bildirən Ramazan Karaca, "Hərdən mənə deyirlər ki, 60 yaşın var, bu işi görmək sənə çətin deyil? Mən əti, südü, qatığı kənardan alsam olmaz. Eyni zamanda bunları dövlətimizə dəstək olmaq üçün edirəm", - deyir.

Əvvəllər butulka ilə qidalandırdığı və böyütdüyü quzularının olduğunu bildirən Ramazan Karaca sözlərinə davam edir: "Bu yaxınlarda qoyunlarımızdan biri üçəm doğdu. Quzulardan biri doğularkən öldü. Anası digər quzuları qəbul etmədi. Biz də quzuları butulka ilə yedizdirib böyüdürük. Çox yoruluruq. Yem çatdıra bilmirik. Çoban tapa bilmirik.

Gecələr bəzən tövlədə yatıram. Çünki qoyunlarımız bala verir. Damazlıq üçün gecə-gündüzümüz yoxdur. Quzular məni sevir. Qapıdan girəndə hamısı mənə tərəf qaçırlar. "Nöqtə" hamısından tez mənə tərəf qaçır".

**Turan**

## Dünəndən qalma çayı içmək olmaz



**Çayı həmişə təzə dəm içmək lazımdır. Köhnə dəm orqanizmə zərərlidir.**

Bakupost.az xəbər verir ki, nutrisoloq İrina Mansurova köhnə dəmi içmək vərdişi təhlükəlidir.

"Köhnə dəmdə patogenlər və göbələklər yaranır. Çayın düzgün içilmə sxemi - təzə dəmləyib, 10 dəqiqədən sonra işmək və ən çoxu 1-2 saat saxlamaqdır. Bir sutka qalan çayda heç bir faydalı təsir qalmır. Yaşıl və ağ çay 80 dərəcə qaynar su, qara çay 95 dərəcə suda dəmlənir. 1-2 saatdan sonra artıq qalan dəm atılmalı, yenisi dəmlənməlidir".